**AŞIQ MUSTAFA ŞIXLINSKİ**

# CEYRANIM

**“Elm və təhsil”**
**Bakı – 2014**

***Kitab AMEA Folklor İnstitutunun Elmi Şurasının 25 fevral 2014-cü il tarixli qərarı ilə nəşr olunur.***

| | |
|---|---|
| **Redaktor:** | **Zəlimxan Yaqub**<br>*Xalq şairi* |
| **Tərtib edəni və çapa hazırlayan:** | **Elxan Məmmədli**<br>*filologiya üzrə fəlsəfə doktoru* |
| **Rəyçi:** | **Seyfəddin Qəniyev**<br>*filologiya üzrə elmlər doktoru* |
| **Toplayan:** | **Maarif Mustafa oğlu** |
| **Sponsor:** | **Elbrus Maarif oğlu** |

Aşıq Mustafa Şixlınski. Ceyranım.
Bakı, "Elm və təhsil", 2014, 104 səh.

Borçalı aşıq mühitinin qüdrətli simalarından biri kimi tanınan Aşıq Mustafanın (Şıxlinskinin) oxuculara təqdim olunan "Ceyranım" adlı kitabına sənətkarın gəraylı və qoşmaları ilə yanaşı özünün yaratdığı "Mustafa və Əsmər" dastanı da daxil edilmişdir. Aşığın rəngarəng mövzulara həsr olunmuş şeirləri əminik ki, poeziya xiridarlarının geniş marağına səbəb olacaqdır.

$\frac{4702000000}{N098-2014}$ ***грифли няшр***

**© «Елм вя тящсил», 2014**

## AŞIQ MUSTAFANI NECƏ GÖRDÜM, NECƏ TANIDIM

Aşıq Mustafa Qarnet oğlu haqqında çox eşitmişdim. Eşitmişdim ki, sinəsi dolu, nitqi səlis, həm də şaqraq zənguləli meydangir aşıq olub. Borçalı aşıqları arasında öz sözü, öz çəkisi, öz səliqə-səhmanı ilə seçilib. Elə bu keyfiyyətlərinə görə də el içində dərin hörmət qazanıb. Uzaqdan baxana bir qədər təkəbbürlü, bir qədərə özündən razı görünsə də onu yaxından tanıdıqdan sonra ilk təəssüratın yalnış olduğuna şahid olanlar həmişə Aşıq Mustafa haqqında onun müsbət keyfiyyətlərindən ağızdolusu danışırdılar. Ustadın alicənablığı, qonaqpərvərliyi, meydangirliyi, aydın və məntiqi nitqi, həm də rabitəli saz ifaçılığı, məlahətli-ötkəm səsi onu tanıyanlar tərəfindən həmişə yüksək qiymətləndirilib. Aşıq Mustafa ilə şəxsi tanışlığımız olmayanacan bu gözəl aşıq haqqında Ustad Əmrahdan, Hüseyn Saraclıdan, Alxan Qarayazılıdan, Aslan Kosalıdan, Xan Kamandardan, xüsusən də Aşıq Göyçə ilə Əhməd Sadaxlıdan, bir də Məhəmməd Sadaxlıdan xoş sözlər çox eşitmişdim. Və bu eşitdiyim keyfiyyətlər, Aşıq Mustafa haqqındakı xoş sözlər məndə Borçalının bu ünlü sənətkarını tezliklə görmək arzusunu tezləşdirməyə tələsdirirdi. Nəhayət, belə bir xoş gün özünü gecikdirmədi. Günlərin bir günü Borçalıda səfərdə olarkən Aşıq Mustafa ilə görüşümüz baş tutdu.

Yaxşı yadımdadır, Borçalıya həm folklor nümunələri toplamağa, həm də o vaxtlar Azərbaycan radiosunda hazırladığım “Sarıtel”, “Gözəlləmə” musiqili verilişlərinə yerli aşıqları yazmaq üçün getmişdim. Çox məhsuldar bir səfər oldu mənim üçün həmin günlər. İndi o günləri xatırladıqca gözlərim önünə kimlər gəlmir? – Aşıq Alxan Qarayazılı, Aşıq Mərdanə Hü-

seyn, Aşıq Göyçə, Aşıq Cəmil Qaçağanlı, Aşıq Əhməd Sadaxlı, Aşıq Nurəddin, Aşıq Bəkir, Aşıq Əmir, Aşıq Mustafa Təkəli, Aşıq Əlyar, Aşıq Xanış, Aşıq Allahyar, Aşıq Gülabı, Aşıq Əşrəf Qəni. Adlarını çəkdiyim bu saz-söz adamlarının hamısı onda sağ idilər. Bu səfərimdə indi dünyasını dəyişmiş ustadların əksəriyyətinə “Sarıtel” və “Gözəlləmə” verilişləri həsr etmişdim. Allah onların hamısına rəhmət eləsin, qəbirləri nurla dolsun. Onlar cismən yoxdurlar. Lakin onların əksəriyyətinin vaxtilə hazırladığım verilişlərimdə yadigar ifaları və söhbətləri mənimlədir. Lent yazılarında qorunan, mənim üçün çox doğma və müqəddəs olan bu səsləri vaxtilə Azərbaycan Dövlət Səslər Arxivinə təqdim etmişəm. Nə qədər Azərbaycan Dövləti, nə qədər xalqımız mövcuddur bu səslər də bir tutiyə kimi qorunacaqdır, bu gün də, gələcəkdə də alimlərin və mütəxəssislərin tədqiqat obyektinə çevriləcəkdir.

Aşıq Mustafa Təkəlinin də səsi, şirin söhbəti bu gün tərəfimizdən yazıya alınmış nümunələr sırasında əbədi “ömrü”nü yaşamaqdadır. Ruhları şad olsun hamısının.

...Adını eşitdiyim, haqqında dəyərli məlumatlar əldə etdiyim Aşıq Mustafa ilə ilk görüşüm 15 iyul 1997-ci ildə onun Təkəli kəndindəki evində baş tutdu. Neçə gün idi ki, Qaçağan kəndində Aşıq Cəmilin qonağı idim. O, rəhmətliyin təşəbbüsü və təkidi ilə onun şəxsi “QAZ-24”-də bir neçə gün dalbadal kəndlərə gedib aşıqları “Sarıtel”ə yazırdıq. Allah ona rəhmət eləsin, o günlər mənim çox zəhmətimi çəkdi. İndi bilmirəm belə adamları tapmaq olarmı?!

Bir axşam Aşıq Cəmilin evində onun özünə gözəl bir “Sarıtel” hazırladıq. Qərara gəldim ki, növbəti gün Aşıq Cəmillə Qasımlı kəndinə gedib Aşıq Nurəddinlə oğlu Həvəskarı da “Sarıtel”ə yazaq. Aşıq Cəmil rəhmətlik məsləhət bildi ki, Nurəddingilə sabah yox, bu axşam gedək. Həm də vaxta qənaət edək. Gecə Aşıq Nurəddini və oğlunu yazıb qayıdaq. Bir qədər

dincəldikdən sonra səhər Aşıq Nurəddin də, oğlu Həvəskar da gəlsinlər Qaçağana və birlikdə Təkəli kəndinə – Aşıq Mustafagilə gedək.

Elə də oldu. Yağışlı-çovğunlu bir gecədə Qasımlıya çatdıq. Güclü yağış, bir yandan şimşək, külək. Güclü küləyin-yağışın təsirindən elektrik dirəkləri də dözməyib kəndin çox yerində aşmışdı. Kənd qaranlığa qərq olmuşdu. Yaxşı ki, özümlə səs yazan cihaza təzə batareyalar götürmüşdüm. Bir sözlə, ürəyim istəyən bir "Sarıtel"imiz alındı. Üstəlik, ata-balanın (Nurəddinlə Həvəskarın – E.M.) ifasında 90 dəqiqəlik bir kasset də yazdıq. Çox gözəl oxudular o axşam. Həmin kasset sonralar əl-əl gəzdi, çoxları bu ifaların üzünü köçürüb yayırdılar.

Bakıya çatanda həmin ifaların əsasında "Gözəlləmə" proqramı da hazırladım. Hazırda Azərbaycan radiosunun fondunda qorunur.

...Danışdığımız kimi, Aşıq Cəmil, Aşıq Nurəddin, Aşıq Həvəskar, bir də mən gündüz saat 12 radələrində (15 iyul 1997) Aşıq Mustafanın həyətinə daxil olduq. Ustad üzünü taraş eliyirdi. Bir azdan üzünü qırxıb, yuyunub, geyinib-kecindi, bizimlə görüşməyə gəldi. Evdən çıxanda elə bil bir cəlallı bəy kimi çıxdı. Başında qaragül aşıq papağı, üst-baş tərtəmiz, çəkmələri qapqara şəvə kimi par-par parıldayırdı. İlk dəfə gördüyüm bu səliqə-sahmanlı insanın belə görüntüsü məni valeh etdi. Üzümü Aşıq Cəmilə tutub dedim, ay ustad, Aşıq Mustafa nə dambat aşıqdır (Borçalıda adətən səliqə-sahmanlı geyinən adamlara, xüsusən də kişilərə "dambat" deyirlər – E.M.) dedim. Aşıq Cəmil dedi, qardaş oğlu, sən bu Mustafanın nəyini görmüsən. Onun kimi səliqə-sahmanlı aşığı çətin tapmaq olar.

...Nə isə, Mustafa əmi xoş təbəssümlə hamımıza "xoş gəldin" eliyib boynumuza sarıldı. Üzünü mənə tutub dedi: "Qardaş oğlu, üzbəüz görüşməsək də səni yaxşı tanıyıram. Radyo verilişlərinə də, televiziyadakı proqramlarına da baxıram. Çox

xoşum gəlir. Hələ üstəlik kəndinizə də yaxşı bələdəm. Faxralı ağır eldi, ordan qoçax kişilər həmeşə çıxıb. Üzünüz ağ olsun, xalqımızın ölməz sənətini yaşadırsınız". Beləcə, söhbətə ayaq verdik. Verilişimizi hazırladıq (Qeyd edim ki, həmin verilişin mətnini olduğu kimi kitabın sonuna əlavə etmişik. Təbii ki, musiqi ifası istisna olmaqla – E.M.). Həmin verilişdə Aşıq Nurəddin də, Həvəskar da, Aşıq Cəmil də öz ifaları və söhbətləri ilə verilişə bir az da dad qatdılar.

Söhbət əsnasında mənə məlum oldu ki, Aşıq Mustafa aşıqlığı ilə yanaşı, həm də gözəl şairdir. Belə aşıqlara "yaradıcı aşıq" deyirlər. Və aşığın nəzərinə çatdırdım ki, ustad, mən həm də sənin əziz oğlun, gözəl gənc sənətçi Maariflə də dostam. Xahiş edirəm bu şeirlərinizi bir yerə cəm eləyib Maarifə çatdırın, yaxın vaxtlarda bu şeirləri kitab halında nəşr etdirək. Bu təklifimdən Aşıq Mustafa çox məmnun oldu və bildirdi ki, belə bir iş görsəniz məni çox sevindirərsiniz, həm də ömrümü uzadarsınız.

Ustada necə söz vermişdim, elə də Bakıya gələn kimi aşığın oğlu Maariflə görüşdüm. Söz verdi ki, 10-15 günə atasının bütün külliyyatını gətirib nəşrə hazırlamaq üçün mənə təqdim edəcək.

Bir qədər keçmişdi Maarif Mustafa oğlu mənə çox pərişan halda zəng edib dedi ki, atasının şeir və dastanlardan ibarət qovluğu şəxsi avtomobillərindən oğurlayıblar. Ancaq Maarif söz verdi ki, atasının poetik yaradıcılığını ciddi-cəhdlə axtarıb bərpa edəcək.

Artıq o vaxtdan illər keçdi. İllərcə aşığın şeirlərini gözləmişdim. "Bu gün, sabahlar" çox uzandı. Aşıq Mustafa öz şeirlər kitabını görə bilmədi. Kimin günahından, kimin laqeydliyindən? Bunu deyə bilmərəm. Atalar demiş "ya vəlvələdən, ya zəlzələdən".

Ancaq rusların bir deyimi bu məqamda yadıma düşdü, tərcüməsi belədir: "heç olmamaqdansa gec olmaq yaxşıdır".

Nəhayət, ustad aşığımız Mustafa Təkəlinin şeirləri sizlərin qarşısındadır, əziz oxucular. Maarif Mustafa oğlunun axtarıb araya-ərsəyə gətiridiyi kitabdakı nümunələri sizlərlə üz-üzə qoyuram. Oxuyun, Aşıq Mustafaya sizlər də rəhmət deyin. Kitab haqqında fikir, təklif və iradlarınızı bizə ünvanlamağı unutmayın. Ustadın ruhuna böyük hörmət və ehtiramla:

*Elxan MƏMMƏDLİ*
*AMEA Folklor İnstitutunun*
*Aşıq yaradıcılığı şöbəsinin müdiri,*
*Əməkdar Mədəniyyət işçisi*



## UNUDA BİLMƏDİYİM USTAD

Aşıq Mustafa Qarnet oğlu 1929-cu ildə Qazax mahalının Şıxlı kəndində məşhur Şıxlinskilər ailəsində dünyaya göz açmışdır. Hələ Mustafa balaca körpə ikən atası Qarnet ağa digər qohumları ilə bərbər 1931-ci ildə Şura hökuməti tərəfindən Sibirə sürgün edilmişdi. Atasız qalan balaca Mustafa çətinliklə də olsa həddi-buluğa çatana kimi Şıxlıda yaşamışdı. Sonralar Borçalı mahalının Təkəli kəndinə köçmüş və ömrünün sonuna qədər bu kənddə ömür sürmüşdü. İlk sənət dərsini hələ balaca ikən atası Qarnet ağadan almışdı. Anası Sənubər xanımın ən çox sevdiyi "Dilqəmi" havası aşığın ifasında xüsusi orijinallıqla səslənərdi. Əsmər adlı bir qızla ailə quran aşığın beş oğlu və iki qızı olur. Erkən, çox gənc yaşlarında dünyalarını dəyişən oğlu Arif (o da atasının yolunu davam etdirirdi) və qızı Aidənin ölümü aşığı çox sarsıtmışdı.

Aşığın oğlu Arifin vaxtsız vəfatına yazdığı şeirində, bu faciədən sonra onun bir daha sazı sinəsinə almayacağını desə də, ancaq yenə təsəllisini sazdan alacağını görürük:

Bəzən olur coşub eşqə dalıram,
Təsəllimi telli sazdan alıram.
Qəmlənəndə "Yanıq Kərəm" çalıram,
Onda bil ki, bürüyübdü çən məni.

Aşıq çox iradəli bir şəxsiyyət idi. Qətiyyəti çox sevirdi, meydangir sənətkar idi, mən onunla çox ünsiyyətdə olmuşam. Çox sevdiyi havalar adətən qəhrəmanlıq havaları idi. Məsələn, Koroğlunun bütün havaları, "Osmanlı divanı", "Keşişoğlu", "İrəvan çuxuru" və sair. Mən özümün "Təkəli" şeirimdə məhz

ustadın – Aşıq Mustafanın Cəngi nərəsi misrasını təsadüfi qeyd etməmişəm:

Sənətkar yaradıcı aşıq idi. Amma hər zaman məclisə girəndə əvvəlcə ustad sənətkarlardan – Ələsgərdən, Alıdan, Abbasdan, Şair Nəbidən, Ağacandan və s. söhbət açardı. Sonra elin çox sevdiyi və öz yaradıcılığının məhsulu olan "Əsmər və Mustafa" dastanını danışardı.

Yaxşı yadımdadı, 1963-cü ilin 1 may günündə mən aşığın böyük oğlu Qasımla (o vaxt ikimiz də 8-ci sinifdə oxuyurduq) onlara getdik.

Bayram günü idi. Aşıq çalıb-oxuyurdu. Bizi görcək dedi ki, gəlin qulaq asın, yeni şeir yazmışam. O vaxtdan bu şeir mənim yaddaşımdadır. Olduğu kimi qeyd edirəm:

Yadındamı biz gedərdik,
Dağa, bağa, a ceyranım.
Hiss edirdim sən xanımsan,
Mən də ağa, a ceyranım.

Sevgi, məhəbbət qanıram,
Qohumluqdan utanıram.
Tək qalmışam, boylanıram,
Sola, sağa, a ceyranım.

Qəmlər çəkən Mustafadı,
Səndən kam alıb doymadı.
Günahkar fələk qoymadı,
Qovuşmağa, a ceyranım.

Hal-hazırda bəzi aşıqlar və müğənnilər tərəfindən bu şeirə edilən dəyişikliklərə baxmayaraq, ustadın dilindən çıxan orijinal variantını mən təqdim etdim.

Çox gənc yaşlarında Borçalı mahalının Təkəli kəndinə köçmüş və orada məskunlaşmışdır. Elin hörmətini qazanan aşıq Mustafa qısa müddət ərzində nəinki Təkəlinin, bütün Borçalı və Qazax mahalında sayılan sənətkarlar sırasında özünə möhkəm yer tutmuşdu.

Hazırda Aşıq Mustafanın oğlanlarının dördü və iki nəvəsi ustadın bu gözəl sənətini davam etdirirlər.

Təəssüf hissi ilə deməyi özümə borc bilirəm ki, aşığın yazdığı şeirlərin çox hissəsi itmiş, tam qorunub saxlanmamışdır. Elin yaddaşına əbədi həkk olunan Aşıq Mustafa 2003-cü ildə yaşadığı Təkəli kəndində vəfat etmişdir.

Allah cəmi ustadlara, o cümlədən ustadım Aşıq Mustafaya rəhmət eləsin. Amin!

*Aşıq Qaracan Kərimov*



# G Ə R A Y L I L A R

## CEYRANIM

Yadındamı bir gedərdik,
Dağa, bağa, a ceyranım.
Sanırdım ki, sən xanımsan,
Mən də ağa, a ceyranım.

Sevgi-məhəbbət qanıram,
Qohumluqdan utanıram.
Yana-yana boylanıram,
Sola- sağa, ay ceyranım.

Qəmlər çəkən Mustafadı,
Səndən kam alıb doymadı.
Günahkar fələk qoymadı,
Qovuşmağa, ay ceyranım.



## GƏTİRƏR

Atalardan bir misaldı,
Xəcalətlik tər gətirər.
Arvad evdə xəzinadar,
Qazancını ər gətirər.

Oğul eşidər atanı,
Elə oğul varmı, hanı?
Çox zaman da bəd xatanı,
Acı dil, boş şər gətirər.

Mustafa, kim qədir bilsə,
Yanana ver canı gəlsə.
Aparanlar gətiribsə,
Əsirgəmə, ver gətirər.

## AY SAZ

Beş-altı yaşımdan bəri,
Sirrim-sirdaşımsan ,ay saz.
Unutmaram o günləri,
Bacım, qardaşımsan, ay saz.

Səni çox çalmışam mərdə,
Dindirmişəm pərdə-pərdə.
İri-xırda məclislərdə,
Yarım-yoldaşımsan, ay saz.

Mustafanın əcdadısan,
Atasısan – anasısan.
Sən mənimlə olmalısan,
Ölsəm başdaşımsan, ay saz.



## NAHAQDI

Ataların dediyinə,
İnanmamaq çox nahaqdı.
Bu dünyayla işim yoxdu,
O dünyada olan haqdı.

Niyə tərk etdim elimi,
Qürbət ağartdı telimi.
Arif[1] qırmışdı belimi,
Aidə yandirdı-yaxdı.

Mustafaya qulaq asın,
Hamı çox istər balasın.
Heç kəs məni qınamasın,
Oxumağım ağlamaqdı.



[1] Arif və Aidə – hər ikisi də aşığın çox gənc ikən vəfat etmiş övladlarıdır.

## VAXTI

Gəlin hamı alqışlayaq,
Belə dövrü, belə vaxtı.
Əgər bəyənməyən varsa,
Bilsinlər ki, sözüm haxdı.

Oğul, fikrin nədi sənin,
Həmdəmimdi bu saz mənim.
Aşıqların, xanəndənin,
Borcu çalıb-oxumaqdı.

Ay Mustafa, görmə qada,
Çalış canı vermə bada.
Toy olsa da, olmasa da,
Dəlininki oynamaqdı.

## ETİBARSIZ

Can deyib can eşidən yar,
Nədən oldun etibarsız?
Bağlamışdıq əhdi-ilqar,
Niyə oldun etibarsız?

Yollarda qoydun gözümü,
Dillərə saldın sözümü,
Dərdə saldım öz-özümü,
Səndən ötrü, etibarsız!

Könlüm evin dərd-qəm alıb,
Bətim-bənizim saralıb.
İndi əlac sənə qalıb,
Sən bilirsən, etibarsız

Mustafayam, mən gedirəm,
Getdiyim yeri bilmirəm.
Axır sözümü bitirrəm,
Salamat qal, etibarsız.



## GƏLMİŞƏM

Ala gözlüm, həsrətindən,
Can verib cana gəlmişəm.
Eşitmişəm əhd edibsən,
Öldür qurbana gəlmişəm.

Qəti insaf yoxdu səndə,
Can daha qalmayıb məndə.
Bizim eldən sizin kəndə
Mən yana-yana gəlmişəm.

Hayıfsan batma qanıma,
Hörmət elə, gəl yanıma.
And olsun cavan canıma,
Dinə, ımana gəlmişəm.

Şükür tapmışam cananı,
Canıma canı yananı.
Qurudubsan Mustafanı,
Eylə, dərmana gəlmişəm.

## YAZIĞAM

Ala gözlü mehribanım,
Məni yada sal, yazığam.
Səndən ayrı dözənmirəm,
Bir qeydimə qal, yazığam.

Heç demirsən ələm varmı,
Kağız, dəftər, qələm varmı,
Məktub yaza bilən varmı,
Göndər könlüm al, yazığam.

Mustafayam , sinən döyüləm,
Alovlansam sönən döyüləm,
İlqarımdan dönən döyüləm,
Mən ürəkdə ol, yazığam.



## DÖZƏCƏKSƏN

Ala gözlü mehribanım,
Mənsiz necə dözəcəksən?
Ellərin tənə sözündən
Bilirdim ki, bezəcəksən.

Yadlar bu sirri biləcək,
Əl çalıb yaman güləcək.
Başıma hava gələcək,
Gözlərinlə görəcəksən.

Nə vaxt yerə yan verıirəm,
Yuxumda səni görürəm.
Ahuzarnan can verirəm,
Sən də mən tək öləcəksən.

Hanı mənim telli sazım,
Bağlanıb dilim, ağızım.
Çatarsa ölüm kağızım,
Xeyri nədir, gələcəksən.

Səndə varsa sevgi canı,
Deyəcəksən ya rəbb, hanı?
Vaxt olacaq Mustafanı,
Ah çəkibən gəzəcəksən.

## ALDADACAQ

Yoldaş olma tamahkarnan,
Hər vaxt səni aldadacaq.
Yaxşı adam danışdıqca
Kəlmələri bal dadacaq.

Dayandırın götür-qoyu,
Kişi yığıb illər boyu.
Qoy var olsun belə toyu,
Ha yeyin ki, qurtaracaq.

Varı olan gedər dağa,
Varsız yalvarar torpağa.
Bağban, naşı qoyma bağa,
Hər nə yesə kal dadacaq.

Mustafadan inciməyin,
Simsarıdı ağa, bəyin.
Adətidir ala səyin,
İçib şorun çıxardacaq.

## GƏTİRƏR

Bəz adamın ruzqusunu,
Ağ yel, qara yel gətirər.
Bir tərəfdən göndərərlər,
Bir tərəfdən sel gətirər

Yaxşı yeyin, yaxşı geyin,
Yaxşılara yaxşı deyin.
Bacaranın hər bir şeyin
Quru şirin dil gətirər.

Ay Mustafa, yalvar saza,
Yazıb yarat hər avaza.
Bərəkət de çoxa, aza
Səninkini el gətirər.

## XEYİR OLSUN

Xeyir olsun, köhnə dostum,
Nə gəzirsən buralarda?
Xeyli vaxtdı gedənmirəm,
Nə var, nə yox oralarda?

Qurdalama yaraları,
İtirmişəm bax buları.
Heç balanın balaları
Qalmasınlar aralarda

Mustafayam, yada yadam,
Yaxınlara çatdı sədam.
Dərdi-qəmi çəkən adam,
Sınıxar da, saralar da.

## MƏNİ

Ay hazarat, ay camaat,
Öldürəcək bu dərd məni.
Heç qoymurlar olum rahat,
Öldürəcək bu dərd məni.

Zülümdədi bu yazıx baş,
Ağrı verir yavaş-yavaş.
Varmı gələ qohum-qardaş,
Öldürəcək bu dərd məni.

Mustafadı mənim adım,
Sözümə baxmır övladım.
Oysunçu olub arvadım,
Öldürəcək bu dərd məni.



## AYNA XANIM

Bu gün sənin toy günündü,
Çox mübarək, Ayna xanım.
Bəy oynasa bollux olar,
Dur qalx özün oyna, xanım.

Sağdışın corab toxuyur,
Məclic nə gözəl qoxuyur.
Aşıq sən üçün oxuyur,
Bir fikir ver çayna, xanım.

Oxşarın var Quba qaza,
Marağın var sözə , saza.
Yazı yazan düzgün yaza,
Hər kəsdəri tayna, xanım.

Mustafayam ağa –bəyəm,
İstəmərəm qəlbə dəyəm.
Yetmiş yaşın içindəyəm,
Ayna xanım, oyna, xanım.

Gözündəsən bəyin, xanın,
Dilindəsən el-obanın.
Bu gün - sabah Mustafanın,
Oturarsan vayna, xanım.

## ANAM AMANATI

***Hərbi xidmətdə olanda***

Könlüm yenə dərdlə dolub,
Əsmər, anam amanatı.
Dünya etibarsız olub,
Ana, Əsmər amanatı.

Qardaş, bacı görməmişəm,
Yarla səfa sürməmişəm.
Sağam hələ ölməmişəm,
Ana, Əsmər amanatı.

Mənim anam sənə nədi,
Həm ana, həm qaynənədi.
Demə , Mustafa demədi,
Ana, Əsmər amanatı.
Əsmər, anam amanatı.

# Q O Ş M A L A R

## AY BALA

***Oğlum Arifin vaxtsız vəfatına***

Sən qarmon çalardın, mən həzz alardım,
İndi sənsiz necə dözüm, ay bala.
Dövranlar açardım, məclis qurardım,
Bağlı qaldı sazım, sözüm, ay bala.

Getmiş idin artırasan elimi,
Artırmadın gödək etdin dilimi.
Atan idim niyə qırdın belimi,
Yoxdu daha məndə dözüm, ay bala.

Zinhar oldum, oğul, getmə deməkdən,
Mustafayam, qolum sındı biləkdən.
El sözüdü, hamı görür fələkdən,
Günahkaram mənim özüm, ay bala.



## A QARDAŞ

***Mərhum qızım Aidənin dilindən***

Əzəl həyatımnan gileyliyəm mən,
Nə gün gördüm, nə də güldüm, a qardaş.
Qəflətən yolumu aldı duman, çən,
Başıma nə gəldi bildim, a qardaş.

Gəlirdim eşidəm atam sazını,
Körpə qardaşların xoş avazını.
Şoferə yalvardım azalt,qazını,
Qərq etdi, körpəmlə öldüm a qardaş.

Aydəyəm, Səidəmi saxlayanım var,
Hər gün məzarımı yoxluyanım var.
Turalı Qabilə verdim yadigar,
Özüm sənə qurban gəldim, a qardaş.



## AY MAMAM QIZI

Səni çox sevirəm, ay mamam qızı,
Nə ola yadına salasan məni.
Belə bir arzum var Allah-Taladan,
Vaxt ola qoynuna alasan məni.

Bilirəm ki, məni çox istəyirsən,
Bəs niyə gözümə görünməyirsən?
Ömrümün tağını basıb əyirsən,
Qorxuram çöllərə salasan məni.

Mustafa, sirrini vermə heç kəsə,
Uymaynan çirkinə, qoşulma pisə.
Üçü sizdən, beşi bizdən, nə isə,
Məsləhət görüblər sənə ər məni.



## SƏN ALLAH

Ey sevgilim, keçən günü söylüyüb,
Canımı odlara yaxma, sən Allah.
Zarafat vaxtımda yaxın gəlmirdin,
İndi əl-ayağa sıxma, sən Allah.

Səsdəynən oyansın yatan könlümü,
Məni qəm evinə atan könlümü,
Səni çox istəyib tutan könlümü,
Demədimmi gülüm, yıxma, sən Allah.

Mustafayam, sirlər qaldı canımda,
Çıxdı yaddan məzhəb, din-imanım da.
Bardaş qurub əyləşginən yanımda,
Qanrılıb özgəyə baxma, sən Allah.

## UTANMAYA

Evlərdə şirinlik, məhəbbət ola,
Arvad düz dolana, ər utanmaya.
Ürəkdən ürəyə kəsə yol ola,
Bəzən alovlanıb, bəzən yanmaya.

Namərdin tənəsi mərdi əritdi,
Ona baxmayaraq mərd yenə mərddi.
Dünyada ən çətin dözülməz dərddi,
Sən qanasan, qarşındakı qanmaya.

Ay Mustafa, yaxşı öyrət naşıya,
Bəlkə o da namus- qeyrət daşıya.
Hər kəs bu dünyada təmiz yaşıya,
Namusu ortada tapdalanmaya.



## BU ÜÇ AYI GƏLƏMMƏRƏM, BAĞIŞLA

Bu üç ayı gələmmərəm, bağışla,
Başkeçiddə ala gözə qonağam.
Həzz alıram bu çisəkdə, yağışda,
Şirin dilə, şırın sözə qonağam.

Nə gözəl ellər var, nə gözəl yerlər,
Yaxşıya burada qiymət verirlər.
Nə ürək yorulur, nə də ki dillər,
Elə bil ki, elə təzə qonağam.

Ölməsəm, düşməsəm qara – borana,
On beşində enməliyəm arana.
Bir quzu da bəsdi , kəsməsin dana,
Mustafayam, Mübarizə qonağam.

## BİLMƏDİM

Bir tərlan uçurdum yarın bağından,
Nə qədər ovladım tuta bilmədim.
Dedilər uzağa düşüb səfəri,
Yeridim, yüyürdüm, çata bilmədim.

Bilmədim günüzdən olan xəbəri,
Qədəm qoydum bağlı otağa sarı.
Həsrətin çəkdiyim gül üzlü yarı,
Aradım , axtardım tapa bilmədim.

Mustafayam, unutmaram elimi,
Soyuq düşsə şaxta vurmaz gülümü.
Yarım gizli getdi, qırdı belimi,
O gecə sübhə tək yata bilmədim.



# GƏLMƏDİ

*(Gəlnim Fatmanın dilindən)*

Aman fələk, az qalıram alışam,
Harda qaldı dövlət-varım gəlmədi?
Utanıram qaynatamdan soruşam,
Harda qaldı kaman-tarım gəlmədi?

A qaynənə, bircə kəlmə sən də din,
Canımızı boğazmıza yetirdin.
Mən bilmirəm, gedin, tapın, gətirin,
Harda qaldı ixtiyarım gəlmədi?

Oğlan evi hər bir şeyi alıfdı,
Toy gününə bircə həftə qalıfdı.
Abidə xanım bizi işə salıfdı,
Harda qaldı vəfadarım gəlmədi?

Atam Musa özü yarım aşıxdı,
Gəldiyim yer tamam bütün aşıxdı.
Yaxşı kişi evdə bir yaraşıxdı
Harda qaldı Qarnet[1] yarım gəlmədi?

[1] *Qarnet – Aşiqin oğlunun adıdır*

## HƏR İKİSİ

Gözəllər içində bir cüt sonam var,
Qəlbinən sevirəm hər ikisini.
Hər axşam, hər səhər, hər dəqiqədə
İstəyirəm görəm hər ikisi.

Ərşi-gürşü, yeri-göyü yaradan,
Çuğulu tez qaldır bizim aradan.
Qadadan, bəladan, gözdən , nəzərdən
Xudam, özün saxla hər ikisini.

Gözəllikdə bir-birinə yaraşır,
Boyların görəndə xəyalım çaşır,
Adların deyəndə dilim dolaşır,
Sevirəm,öpürəm hər ikisini.

Əlimdə olaydı hər ixtiyarım,
Bir az ehtiyatım, dövlətim, varım
İcazə verəydi köhnə arvadım,
Alıb gətirərdim hər ikisini.

Mustafaya yazıxları gəlsələr,
Qələm çalan kişiyə də xoş gələr.
Qarğıyıram  məndən üz döndərsələr,
Qanlı ahım tutsun hər ikisini.

## GƏLƏSƏN

Yazın düz yazıla haqqı-Taladan,
Anadan gələndə yaxşı gələsən.
Ayağın sayalı, qədəmli ola,
Körpəlikdən oynayasan, güləsən.

Boy atasan, kef çəkəsən dünyada,
Xərcləyəsən həm yaxına, həm yada.
“Can” – deyirsə “can” – deyəsən arvada,
Öləndə də ondan qabaq öləsən.

Ay Mustafa, yaşın çatıb yarıya,
İnanma ki, bəxtin bir də sarıya.
Getməlisən , çıx getginən oraya[1],
Bəlkə orda o ölmüşü görəsən.

[1] Oraya – o dünyaya işarədir

## YENƏ

### *(zarafatyana)*

Kərəmə tapşırdım evdə qalgınan,
Dana-buzovları dama salgınan,
At ölsə gönünnən muğat olgunan,
Hopretdə[1] qartofa verərik yenə.

Atı qınamaynan yaşı çoxuydu,
Yaman cansız idi, halı yox idi.
Öldüyü yaxşıdı, alaf yoxuydu,
Gələn il başqasın alarıx yenə.

Çağır bajanağı, desin düzünü,
At öləndə necə yumdu gözünü,
Mustafayam, çərrəmişin  sözünü,
Hərdənbir danışıb gülərik yenə.



[1] Hopret – Borçalıda erməni kəndinin adıdır.

## ÇOX DA QODUXLANMA...

Çox da qoduxlanma filankəs bala,
Ustana de, bir az zapas[1] saxlasın.
Təpinərəm, çıxa bilməz mahala,
Onun-bunun fitvasına baxmasın.

Şairlik dediyin yaxşı murazdı,
Onu kim örgətdi, kim – dedi yazdı?
Oxuya bilmirəm, savadım azdı,
Apar, Qarabağlı baxsın, yoxlasın.

Mustafanın həm əsli, həm zatı var,
Olub keçənlərdən havacatı var.
Çovannan keçinin zarafatı var,
Bu da belə zarafatdı, qorxmasın.



[1] zapas - ehtiyat

## OLMALIDI

Hər yerdə adətdi, toy olan günü,
Gəlinin sovqatı vec[1] olmalıdı.
Bilən varmı bu söhbətin düzünü,
Deyirlər bacanax öc olmalıdı.

Qanan adam heç qoşulmaz axmağa,
Göz yaranıb gördüyünə baxmağa.
Güləşəndə xasımını[2] yıxmağa,
Fəndin çox olsa da güc olmalıdı.

Mustafa, yaxşı bax, əyilməsin can,
Nə axsa, nə sarsı, nə də ki utan.
Atanı, ananı atıb unudan,
Ya axmax, ya sarsax, gic olmalıdı.



[1] vec - cehiz

[2] xasım – rəqib

## OLMALIDI

Oğul məsləhəti atadan alar,
Atalar dediyi düz olmalıdı.
Kişi çox yer gəzər, bir yerdə qalar,
Elə-belə dostu yüz olmalıdı.

Biri-birisiylə döyüşə bilər,
Olar ki, bir az da söyüşə bilər.
Kişi var, sözünü dəyişə bilər,
Sözü dəyişməyə üz olmalıdı.

Rəngsaza yapışqan, aboy lazımdı,
Aşığa ya nişan, ya toy lazımdı.
Qazan qaynamağa aloy lazımdı,
Kabab bişirməyə köz olmalıdı.

İsmarıc yerinə yetsə yaxşıdı,
İnsana yaxşılıq etsə yaxşıdı,
Hər kəs öz işinə getsə yaxşıdı,
Pinəçi əlində biz olmalıdı.

İş əyilib başa xata gəlməyə,
İnsan çox yaşaya, cavan olmüyə,
Kişinin sirrini arvad bilməyə,
Açılsa hər yerdə söz olmalıdı.

Çarə yoxdu olacağa, gələnə,
Adam nə kövrələ, nə kədərlənə.
Qoca istiyər ki, gəzə, hərlənə,

Ona da möhkəmcə diz olmalıdı.

Mustafa sözünə şəkər doğruyar,
Dosta həyan olar, hər vaxt qoruyar,
Özgə özgəninkin hololoyluyar,
Onçun da hər kəsin özü olmalıdı.



## SONRA

Fərqi yoxdu dəydi, ya da dəymədi,
Düşmən gülləsini atandan sonra.
O da bir düşmandı el arasında,
Bir qohum qohumu satandan sonra.

Abırlı, həyalı utanan olub,
İlanın ən pisi yatağan olub.
İtin bütünlüyü tutağan olub,
Tükü dərman olub tutandan sonra.

Kişi gərək namusunu atmaya,
Çuğul olub aralığı qatmaya.
Qazanc daşa, ancaq maya batmaya,
Çox çətindi maya batandan sonra.

Mustafa, lazımdı düzünü demək,
Yandırar insanı zay olan əmək.
Gözə yuxu getməz, boğazdan yemək,
İş əyilib yığval[1] yatandan sonra.

[1] Yığval – bəxt

## KİŞİ

Kişinin arvadı öləndən sonra,
Məni qınamayın səylənir kişi.
Keçmişi yadına gəlif düşəndə,
Özü-özünəcə söylənir kişi.

Qocalanda bir şey gəlmir əlindən,
Tez-tez də inciyir qızdan, gəlindən.
Ona-buna acıxlanır dilinnən,
Birdən də dayanır əylənir kişi.

Dünya puçdu, onu bilmək lazımdı,
Yemək, içmək, demək, gülmək lazımdı.
Dulları da evləndirmək lazımdı,
Çox subay qalanda piylənir kişi.

Öyüdümü eşıidənlər qanacaq,
Qananlar da eşidəcək, alacaq.
Almayanlar yaman günə qalacaq,
Onda deyəcəklər iylənir kişi.

Qulaq qaldı, gözləri ki, görmədi,
Köşməlidir nə qədər ki, ertədi.
Oğul da, uşaq da gözə pərdədi,
Hamsı yığılanda təhlənir kişi.

Mustafayam, qocalsam da bülbüləm,
Ağlamışam, qiismət ola bir güləm,
Bilən varmı burasını bilmirəm,

Lap əldən düşəndə neyləyir kişi?

## HARALIYAM MƏN

Düz yetmiş ildir ki, qürbətdəyəm mən,
Hələ bilən yoxdur haralıyam mən.
Nəslim Şıxlinski, Şıxlı oğluyam,
Bütün qohumlardan aralıyam mən.

Niyə tez tutuldu oxuyan dillər,
Niyə peşman qalıb şeyda bülbüllər.
Çalıb oxuduğum obalar, ellər,
Məni dindirməyin, yaralıyam mən.

Mustafayam, bu bağ-baxça mənimdi,
Qazancım başdaşım, bir kəfənimdi.
Axır dayanacaq – son mənzilimdi,
Daha köçən deyləm, buralıyam mən.

## ZARAFAT

Əzəllərdən çox qıt olub deyirlər,
Sonralardan aşdı-daşdı zarafat.
Nə desələr məcbur olub yeyirlər,
Axırda da bir savaşdı zarafat.

Dil dolaşır, topuq vurur hər zada,
Silkələyir bir şey qalmır torbada.
Ana, bacı oynayırlar ortada,
Çoxun qoyub gözü yaşlı zarafat.

Atalar sözünün hamsı düz olub,
Çox yuxular ziyanlığa yozulub.
Çox dostluqlar zarafatda pozulub,
Nə həyandı, nə yoldaşdı zarafat.

Ağrı döylü, heç qoymaya yatmağa,
Can deyil ki, qıymayasan satmağa.
Nə var onu tullamağa, atmağa,
Nə qohumdu, nə qardaşdı zarafat.

Ay Mustafa, sözü qanar söz qanan,
Bir qanmazı qandıranmaz yüz qanan.
Bağışlamaz söz anlayan, söz qanan,
Görsə əgər həddin aşdı zarafat.

## BALA

İnsan yer üzünə gələnnən bəri
Hər kəsin öz dostu, tayı var, bala.
Allah verdiynə naşükür olma,
Hərənin qisməti, payı var, bala.

Qananla qanmazı bərabər tutma,
Sağalan yaranı əzib qanatma.
Xətiri, hörməti gəl sən unutma,
Süfrənin çörəyi, çayı var, bala.

Ağrı çox olanda yatmaq çətindi,
Günaha, babala batmaq çətindi.
Qohumu-qardaşı atmaq çətindi,
Arxanda əmi var, dayı var, bala.

Bir kəsin marağı olmasa saza
Nə qiymət verəcək sözə, avaza.
Umutdu olmaynan payıznan yaza,
Fəsilin qışı var, yayı var, bala.

Qanan adam zəhər qatmaz aşına,
Qanmazların çox iş gəldi başına.
İçibsənsə yaxın getmə maşına
Yollarda polis var, qayi var, bala.

Çalışginən qəlbə dəyən söz demə,
Nə məcbur et, nə də onu üzdəmə.
Zarafatdan yaxşı bir şey gözləmə,
Zarafatın bekar payı var, bala.

Sənətkar ol, hörmət bəslə peşəyə,
Lazım olsa yığşır, tulla yeşiyə.
Daldalanma çox qaranlıq meşiyə,
Meşədə canavar, ayı var, bala.

Heç bilmirəm nə düşünüm, nə yazım,
Nə oxuyum xoşa gəlsin avazım.
El içində pis hərəkət nə lazım,
Elin xeyir, şəri, vayı var, bala.

Eşidin sözünü ata-babanın,
Xeyri yoxdu qalmaqalın, davanın.
Aşıq Mustafaynan elin-obanın,
Arasında haqqı, sayı var, bala.



## AYIBDI

Qulluq əldən gedib, var azalacaq,
Qohumu-qardaşı atma, ayıbdı.
Hamı əl çəkəcək, düşmən olacaq,
Eli, el oğlunu satma, ayıbdı.

Doğru deyilənlər üzə deyilir,
Qanmaz elə bilir düzə deyilir.
Bu sözlər sizindi, sizə deyilir,
Yalandan göz yumub yatma, ayıbdı.

Mayallağı öyrədəndə ayıya,
Od qoydular samanlığa, tayaya.
Deyirlər ki, su qatmazlar mayaya,
Bir qatıbsan, bir də qatma, ayıbdı

Mustfayla sən bacara bilməzsən,
Pismi olar el deyənə əyilsən?
Heç bir kəsə xeyir verən deyilsən,
Ədəbicən qırıllatma, ayıbdı.

## AYAĞA

Libasın məclisdə böyük hökmü var,
Dost başa baxandı, düşmən ayağa.
Ürəkdən təmizəm, hövsələdən dar,
Məni bağışlarsan özün, ay ağa.

Pis adətdi özgə sözün danışmaq,
Əskiklikdi köçdən köçə qarışmaq.
Qəlbə dəyib, küsü tutub, barışmaq,
Sonra düşüb yalvarasan, ay ağa.

Gözəl olar gözəl doğan analar,
Gözəl olan gözləriynən can alar.
Oxuyanlar, şeyriyyətdən qanalar,
Salmıyalar kraskaya , boyağa.

Mustafayam, şikayətim şahadı,
İtən deyil padşah adı, şah adı.
Korun nə vecinə nöyüt bahadı,
Şahım üçün durmalıyam ayağa.

## YARALIYANDA

Çarxı-fələk, öz-özünə nə dedin,
Mən yazığı yardan aralıyanda.
Şahidin, sübutun olurmu sənin,
Verdiyin qisməti paralıyanda.

O ki, pozacaqsan, niyə yazırsan,
Nə ar eləyirsən, nə oysanırsan,
Onu bil ki, çox günah qazanırsan,
Sevəni sevəndən aralıyanda.

Mustafayam, qəlbim bağlıdı yara,
Gedən yoxdu loğmanıma xəbərə.
Nə mənə rəhm etdin , nə də ki, çara
Qələmin sınaydı qaralıyanda.



## SATMADI

Xəstə düşdüm bir gözəlin eşqindən,
Onda dərman oldu mənə satmadı.
Gözü ilə gördü ki, son nəfəsimdi,
Yalvardım da imdadıma çatmadı.

Ovçuydum, əlimnən qaçırdım oyu[1],
Onsuz qan ağlaram mən illər boyu.
Eşitdim ki, baslayıbdı yar toyu,
Qan ağladı gözüm, yuxu yatmadı.

Deyirlər çox şaddı, çalsın, oynasın,
Mustafa tək qoy ondan da doymasın.
Günahkardı, mənə minnət qoymasın,
Özü atdı, aşıx onu atmadı.

[1] Oyu - ovu



## SARALDIM

Bir nainsaf  beybafanın ucundan,
Günü-gündən heyva kimi saraldım.
Gecə-gündüz dərdlə dava etməkdən,
Zəlil oldum, yaman günlərə qaldım.

Sən açdın başıma hər iş, əməli,
Kim dözə bilməsə olarmış dəli.
İnan canım üçün, yar, sən gedəli,
Nə bir söz oxudum, nə də saz çaldım.

Mustafayam, getdi kefim, damağım,
Sən oldun cəlladım, sən oldun yağım.
Bir ili ac qaldı oğul-uşağım,
Nə çörək bişirtdim, nə taxıl aldım.



## ZƏHLƏM GEDİR

Ağlı kəsən qananların yanında,
Qanmaz danışanda lap zəhləm gedir.
Bəzi müsəlmanlar əza yerində,
Gülüb-qımışanda lap zəhləm gedir.

Mənim şikayətim mərdədi, mərdə,
Necə dözmək olar belə bir dərdə?
Arvad eşdə söyür, kişi içərdə
Sonra barışanda lap zəhləm gedir.

Qaynata əlini qoyub belinə,
Qaynana bir qırmac alıb əlinə.
Fürsət gəlib yetişəndə gəlinə,
Ara qarışanda lap zəhləm gedir.

Bağışlasın toy evinə gələnlər,
Az olmuyub aralıqda ölənlər.
Bu sədanı eşidənlər, bilənlər,
Məndən soruşanda lap zəhləm gedir.

Mustafayam, canım qurban bir ada,

Yamanın yerinə yaxşı yarada.
Kişi dura-dura gəlib arada,
Arvad danışanda lap zəhləm gedir.

## ELOĞLU

Bədnəzərdən xudam özü saxlasın,
Heç olmasın gözə gələn, Eloğlu.
Babalarmız mal-qoyunnan varlanıb,
Sən də saxla, mizə bələn, Eloğlu.

Köhnə sözdü: "içəri dar, eşik qar",
Eldən uzaq olsun yaman, bəd xavar.
Ay tamada, icazə ver sözüm var,
Qoy sağ olsun təzə gələn, Eloğlu.

Mən halıyam havasından qəlbinin,
Gəl yanıma, gəl danışım, gəl deyim.
Heç görmədim qonaq dolu gəldiyin,
Aparıbdı bizə gələn, Eloğlu.

Bacarmayan  bacarannan bacarmaz,
Dərd çəkməsə insan oğlu qocalmaz.
Heç bir yerdə ucalmayıb, ucalmaz,
Qəlbi xayın, üzə gülən, Eloğlu.

Kim kimin qəlbinə toxunub, dəyib,

Deyiblər bağışla, qələt eləyib.
“Üz üzdən utanar” – atalar deyib,
Danmalıdı üzə gələn, Eloğlu.

Elin sözü ağır olar deyərlər,
Yaman adam yaman olar deyərlər.
Qanmayanı qandırarlar, döyərlər,
Çox danışmaz çoxlu bilən, Eloğlu.

El biləndən sən də halı oluynan,
Ayılginan bir kamala doluynan.
De düz gəlsin, düz qayıtsın yoluynan,
Düz adam döy, sizə gələn, Eloğlu.

Hələ nə var çətin işin dalıdı,
Kino sonra olur, bu jurnalıdı.
Kərən qırılanda dam uçmalıdı,
Yalvaracaq dizə gələn, Eloğlu

Ay Mustafa, gərək  tayın tay olsun,
Arzu elə, eldə nişan, toy olsun.
Sünnət olsun, o da toydu , qoy olsun,
Çox yaşasın hər bir eli, Eloğlu.



## YAXŞIDI

Özünə münasib dostlar seçəsən,
Köç eyləyib bulaq üstə düşəsən,
Kababdan döşəyib, şərab içəsən,
Üstündən yeməyə qarpız yaxşıdı.

Yaxşı adam yaxşı yozar vəğyanı,
Bekar adam bezikdirər insanı.
Əvəlikdən bişirməyin doyğanı,
Tama gətirməyə yarpız yaxşıdı.

Aşıq, qəm eyləmə, yad sənə yaddı,
Fərsiz qohumlar da yad kimi zaddı.
Kişinin urvatı yalnız arvaddı,
Şüursuz oğuldan kor qız yaxşıdı.

Mustafayam,  canım qurban o mərdə,
O da dözməz bu zülümə, bu dərdə.
Alçaq, satqın, qanmaz olan hər yerdə,
Durub əyləşməkdən bir vız yaxşıdı.

## XOŞU GƏLƏNDƏ

Adamın adamdan zəhləsi getməz,
Adamın adamdan xoşu gələndə.
Küsər taleyindən, küsər payından,
Dolunun  yerinə boşu gələndə.

Xəstə yüngül olsa irahat yatar,
Çərçi satdığını çox baha satar.
Mamaçı sevinər, şingilim atar,
Uşağın əvvəlcə başı gələndə.

Qoçax adam əkif, biçif satacax,
Alacax, verəcək, yaxıf-yapacax.
Yazan yazar, gəzən gəlif tapacax,
Allahın ildırım daşı gələndə.

Adam cavanlıqda bezmir, yorulmur,
Elə mənəm deyir, sınmır, qırılmır.
Hörməti də olsa qiyməti olmur,
Səksənə, doxsana yaşı gələndə.

Mustafa gördüyün görüb qurtarıf,

Xərcini, borcunu verib qurtarıf.
Kal onu bilsin ki, ölüb qurtarıf,
Onun köməyinə qonşu gələndə.

## GƏRƏK

Hazırlıqsız toy eyləyən Eloğlum,
Toyun tədarükü qabaxdan gərək.
"Toya doy" deyıblər ata-babalar,
Yemək qurtarmasın qabaqdan gərək.

Qoy evin yıxılsın, ay adət qoyan,
Aşıx da boş yerə edərmi dövran?!
Sizdə yoxdu-yoxdu, qonşudan öyrən,
Çörək qurtarmasın tavaxdan gərək.

Pişiyin fikiri olsa mərəkdə,
Təqsiri görərlər yazıx köpəkdə.
Küçük samanlıqda, gəlin gərdəkdə,
Təlim-tərbiyəsi o vaxtdan gərək.

Qurtardı canını ertədən qaçan,
Yedi qulağımızı siçovul, siçan.
Evi yıxılmışı başına uçan,
Qonaq çağırmasın uzaqdan gərək

Mustafa yazdığın mindirər mətə,

Kimdir ki, tamarzı şorvuya , ətə.
Qoymaram zəhmətin ortada itə,
Gedib çapa verəm Qazaxdan gərək.

## GEDİR

Adam var dolanır əli belində,
Hər yerə xonçası , töhvəsi gedir.
Adam var bir hektar torpaq əlində,
Hər səhər qırx nəfər fəhləsi gedir.

Adam var can verir bir şey verəndə,
Adam var kor olur qonaq görəndə.
Adam var elindən kimsə öləndə,
Elə bil varlığı, məhləsi gedir.

Mustafa, danışma pisdən, yamandan,
Başın açılmadı çəndən, dumandan.
Adam var həzz alır sazdan, kamandan,
Adam var çalğıdan zəhləsi gedir.



## BİRİNƏ

Dostlar arasında üç alma olar,
İkisi birinə, biri-birinə.
Belə də deyirlər üç qarpız olar,
Xırdası birinə, iri birinə.

Ataynan oğulu tutma bərabər,
Oğul atasından etməlidi ar.
Atanın əlində ixtiyarı var,
Birinə "danış" deyər, "kiri" birinə.

Mustafa, haqq danış, haqq yerdə qalmaz,
Olacağa çarə olmayıb, olmaz.
Hər sözü hər dosta söyləmək olmaz,
Dərdi birinə de, sirri birinə.



## A QARDAŞ

Dediyimi heç unutma, sal yada,
Yaman günün ömrü azdı, a qardaş.
Qış soyuqdu çətinliyi olsa da,
Gələn aylar bahar, yazdı, a qardaş.

Bilirəm ki, darıxırsan mən üçün,
Darıxmırsan Oruc ağlı kəm üçün.
Aşqabadın gözəlləri sən üçün,
Səndən ötrü Quba qazdı, a qardaş.

Mustafayam, mən də bir az dardayam,
Elə bil ki, borandayam, qardayam,
Bir həftəyə gəlməliyəm, ordayam,
Saz əlimdə kefim sazdı, a qardaş.



## OLMUR

Allah heç bir kəsi gerdə qoymasın,
Gerdə qalanda da yetirmək olmur.
Mən kiməm ki, deyəm ölən olmasın,
Vəziyyət çətindi götürmək olmur.

Qocdan qoç törüyər o da qoç olar,
Yaxşı yaxşılıqla artar, ucalar.
Qoymuyun  pozula bağlar, baxçalar,
Torpaq cırraşıbdı, bitirmək olmur.

Mustafa, məqsədə yetirmək olar,
Bitəni çalışıb bitirmək olar.
Pisin pis sözünü götürmək olar,
Züryətin dinazın götürmək olmur.



## GÖZLƏSİN

İltimas eylərəm nazlı dilbara,
Qış keçir baharı, yazı gözləsin.
Altı ay keçirib verrik əl-ələ,
Qismət olsa o murazı gözləsin.

Ailəsi, qohumu bu fikrə gəlsə,
Məhəbbət eşqindən "ayax çək" desə,
Yığılıban yada vermək istəsə,
Çəksələr dilindən dara gözləsin.

Əgər varsa etibarı, vicdanı,
Saxlasın arada əhdi-ilqarı.
Dərd-qəmə salmasın bu Mustafanı,
İtirməsin o ilqarı gözləsin.



## ÖZ ADIMI QOYDUM NƏVƏMƏ

Əl açıb göylərə müdam yalvardım,
Dedim ki, təzədən ola Mustafa.
Çox şükür arzuya, muraza yetdim,
Adını da qoydum bala Mustafa.

Yaradan yaradıb özü yer ala,
Əlində bir azca ixtiyar ola,
Sənət də gözəldi, sənətkar ola,
Aşıx Mustafa tək çala Mustafa.

Mustafa söz deməz hər axmax üçün,
Arvadı almazlar boşamax üçün.
Dünyada urvatdı yaşamax üçün
Bir ey südü əmmişi[1] ala Mustafa.

[1] Ey südü – halal süd



## TAPMIŞAM

***Dünyadan vaxtsız köçən əzizlərimə***

A qızlar, siz Allah bir layla çalın,
Yaman yorulmuşam, yaman yatmışam.
Soruşun halımı, bir xəbər alın,
İtkin balaları gəlib tapmışam.

Həyatda çox dərdli, yaralıyam mən,
Dünyada ən bəxti qaralıyam mən.
Arifimnən bir az aralıyam mən,
Aydəmnən şirin qucaxlaşmışam.

Bu sazdı söhbətim, yarım, yoldaşım,
Üzdü ürəyimi qəmim , göz yaşım.
Əziz balalarım, bacım, qardaşım,
Mən sizdən əbədi uzaxlaşmışam.



## TEZ BARIŞASAN

Arvadın yaxşısı çətin tapılar,
Kişinin pisi də beyqeyrət olar.
Dostnan elə olasan qardaşdan artıx,
Harda  görüşəndə qucaxlaşasan.

Canannan gedəsən gəzməyə bağa,
Güləşəsən, çalışasan yıxmağa.
Qoymuyasan ara uzaxlaşmağa,
Küsəndə də onnan tez barışasan

Mustafatək birdən vurub yıxasan,
Öpməyəsən yandırasan, yaxasan.
Aralanıb lap uzaxdan baxasan,
Sabahı da gəlib savaxlaşasan.



## MƏNİ

Sözlərimdə məna görmə, ay arvad,
Ağlım uçub, qınamaynan sən məni.
Oğlu ölən köçməlidir dünyadan,
Belə edib fələk ağlı kəm məni.

Bəzən olur eşqə tərəf dalıram,
Təsəllimi telli sazdan alıram.
Nə vaxt görsən "Yanıq Kərəm" çalıram,
Onda bil ki, bürüyübdü çən məni.

Getdi vallah ağam, bəyim, xanım da,
Görən bilər nə dərdim var canımda.
Arif köçdü, Safurə qaldı yanımda,
İnanginan vərəmlədir qəm məni.

Qalanlarım sağ olsunlar yerində,
Yükü çoxdu arvadın da, ərin də.
Huşu getsə Mustafanın sərində,
Yana-yana ağlagınan sən məni.

# GEDİRƏM

***Oğlanlarıma nəsihət***

Vədə yaxınlaşıb, əziz balalar,
Daha bu məhlədən köçüb-gedirəm.
Yamanca acıymış əcəl şərbəti,
Mən də öz payımı içib-gedirəm.

Toyda-mağarlarda keçirtdim ömrü,
Bilmədim zamanı, bilmədim dövrü.
Hər yerdə, hər zaman danışdım doğru,
Yaxşını yamandan seçib-gedirəm.

Arxa-dayaq olun bir-birinizə,
Olub-keçənləri çəkməyin üzə.
Yığılın son dəfə bir baxım sizə,
Atım yəhərlənib, uçub-gedirəm.

Baş çəkin qəbrimə toyda-bayramda,
Yad edin siz məni olsanız harda.
Heç kəs qalan deyil fani dünyada,
Çatdırın məzara, qaçıb-gedirəm.

Səmada durnalar tökərlər lələk,
Qaldırar göylərə əsdikcə külək.
Yaxasız köynəyi bu qanlı fələk,
Aşıq Mustafaya biçib-gedirəm.

## "MUSTAFA VƏ ƏSMƏR" DASTANI

Aşıq Mustafa Qarnet oğlu 1929-cu ildə Qazax mahalının Şıxlı kəndində Şıxlinskilər ailəsində dünyaya göz açmışdı. Balaca Mustafa körpə ikən atası Qarnet ağa qohumları ilə birlikdə 1931-ci ildə Şura hökuməti tərəfindən sürgün edilib. Atasız qalan balaca Mustafa çətinliklə də olsa həddi-buluğa çatana kımı Şıxlıda yaşamış və gecənin birində Gürcüstanın Borçalı mahalının Təkəli kəndində yaşayan Əsmər xanım tərəfindən Aşıq Mustafaya buta verilir. O, səhər oyanan kimi anası Sənubər xanıma bildirir ki, ay ana, mənə bu gecə buta verildi, izn ver mən gedim. Mustafa ananın tək oğlu olduğuna görə ona izn vermək istəmir və deyir ay bala, nə çoxdu kəndimizdə su sonası kimi gözəl-göyçək qızlar, hansını istəsən alaq toyunu edək. Ana çox yalvardı, Mustafa razılaşmadı, bunu görən ana əlacsız qalıb dedı,ondakı gedirsən dayan, xərclik gətirim lazımın olar.

Mustafa sazını götürüb el-el gəzib gəlib çatdı Borçalının Təkəli kəndinə. Soraqlaya-soraqlaya gəlib tapdı Gözəl oğlu Paşanın evini. Evin qarşısında dayanıb o yana-bu yana boylanırdı, bir də gördü bir qarı gəlir, tez qarıya yaxınlaşıb Əsmər xanımı xəbər aldı, qarı Mustafanı tanıdı, çünki Əsmər xanım əhvalatı qarıya danışmışdı və tapşırmışdı ki, Mustafa gəlsə

onun yerini desin. Odu ki, qarı Əsmər xanımın Calaloğluda (Ermənistanın indiki Stepanavan şəhəri), Çuvuxluda dincəldiyini söylədi, bunu görən Mustafa sazı sinəsinə basıb görək qarıya nə dedi, qarı ona nə cavab verdı:

**Mustafa:**

Başına döndüyüm, ay Sultan ana,
Göstərginən qızlar hansı bağdadı?
Səni yetişəsən imana, kama,
Göstərginən qızlar hansı bağdadı?

**Sultan qarı:**

Oğlan, deyən nabələdsən buraya,
Bizim qızlar nə burda, nə bağdadı.
Əsmər xanım köç eyləyib yaylağa
Bütün qızlar Çuvuxluda dağdadı.

**Mustafa:**

Yalançılıq yaraşarmı qarıya,
İncikliyi salmaginən araya.
Torvadakın sənlə bolləm yarıya,
Göstərginən qızlar hansı bağdadı?

**Sultan qarı:**

Belə şeylər olmalıdır yavaşdan,
Nə çıxacaq qalmağaldan, savaşdan.
Torvadakın gəlsən bölək bu başdan
Çünki bizdə nisyə yoxdu, nağdıdı.

**Mustafa:**

Mustafayam gəl bir əyləş yanımda,
Mən də intizaram, Əsmər xanım da.
Torva da qurvandı, sənə canım da
Göstərginən qızlar hansı bağdadı?

**Sultan qarı:**

Sultan deyər, xoş gəlmisən bu kəndə,
Qonağım ol buralardan keçəndə.
O gördüyün gözəl bağın içində
Bir azca get sağ tərəfdə, sağdadı.

Mustafa Sultan qarının dediyi kimi Çuvuxluya gedir, bağ çox olduğundan bağı tapa bilmir, bir də baxanda görür ki, bir palıd ağacının altında bir qəssab ət satır. Bunu görən Mustafa qəssaba yaxınlaşıb Paşanın qızı Əsmər xanımın dincəldiyi bağı xəbər alır. Qəssab isə Gözəl oğlu Paşanın qonşusu olduğundan Əsmər xanımın yerini demək istəmir. Mustafa başa düşür ki, qəssab demək istəmir. Mustafa işi belə görüb onu hədəliyir, qəssab İsə qorxusunnan bağın yerini deməli olur. Mustafa sazı sinəsinə basıb görək nə deyir, qəssab ona nə cavab verir.

**Mustafa:**

Canım qəssab, sənə zəhmət olmasın,
Göstərginən qızlar hansı bağdadı?
Qış zamanı yasəməni solmayan,
Yayda kölgəsində qar olan bağı.

**Qəssab İsə:**

Səd afərin, mərfətinə əzəldən,
Xoş gəlmisən, bizim yerə, əzizim.
Yayın ortasında qardan danışıb,
Zəhmət vermə şirin dilə, əzizim.

**Mustafa:**

Nəzakət bağından geri qalmayan,
Yasəməni, qızıl gülü solmayan,
İllər boyu yarpağı saralmayan,
Hər gözəl meyvəsi var olan bağı.

**Qəssab İsə:**

Bu yerlərdə gözəl meyvə çox olub
İgidlərdə əmud, nizə çox olub.
Altı aydır bağban qaçıb, yox olub,
Çor düşübdür qızıl gülə əzizim.

**Mustafa:**

Mustfayam mənə satmayın yalan,
Yoxsa kı malını eylərəm talan.
Zimistan görməyən növbahar olan,
Baxçasında 40 qız var olan bağı.

**Qəsab İsə:**

İsəyəm qəssabam , məndə nə varkı,
Sənə kömək olsun bizdən yuxarkı.
Gəlməyinə sözüm yoxdu, o var ki,
İmran uyub Əsmərgilə, əzizim.

Aşıq Mustafa qəssab İsə göstərdiyi bağa yaxınlaşanda baxıb gördü ki, 40 incə belli qızla Əsmər xanım çarhovuzun ətrafında söhbət edirlər. Elə bu anda Əsmər xanım çevrilib baxır ki, bir cavan oğlan dayanıb onlara baxır, o sahat Mustafanı tanıyır.

Ən yaxın rəfiqəsi Qara qıza yaxınlaşıb onun Mustafa ilə görüşməsinə şərait yaratmasını ondan xahiş edir, onlar birlikdə Mustafanın yanına gəlib xoş gəldin deyirlər.

Mustafa sevgilisini görən kimi eşqə gəlib sazı sinəsinə basıb görək Əsmər xanıma nə deyir və Əsmər xanım ona nə cavab verir.

**Mustafa:**

Başına dondüyüm can alan gözəl,
Qərib bir oğlanam sizə gəlmişəm.
Müxənnət, namərdə sirr, bac verməyib,
Ağır ellər keçə-keçə gəlmişəm.

**Əsmər xanım:**

Başına döndüyüm, ay cavan oğlan,
Əcəb edib bizim bağa gəlmisən.
Qonaq allahındı , gələr də gedər,
Nədən bizi qonaq sevər bilmisən?!

**Mustafa:**

Mustafayam  adım düşüb hər yana,
Meydanda kal ilə bacarmaz dana.
Xəbər yetir əmin oğlu İmrana,
Qoy bilsin ki, səni almağa gəlmişəm.

**Əsmər xanım:**

Anam zorla verir ,Əsmərdi adım,
Nə mənə yaraşmır , nə də döy babım.
Sənə yar olmağa qurbandı canım,
Dur qalx gedək hansı yolla gəlmisən?

Söz yetir. Mustafa Əsmər xanımı aparmaq istəyəndə Əsmər xanım öz əmisi oğluna deyikli olduğuna görə Qara qız ona mane olmaq istəyir. Bunu görən Əsmər xanım barmağından üzüyü çıxarıb Qara qıza verir, görək ona nə deyir:

Buraxginən barmağımı
Sayaqlama, ay Qara qız.
Üzüyümü , boyunbağımı
Verim sənə pay ,Qara qız!

Dilindən sızmasın qəti,
Oyadarsan məmləkəti.
Arada olan hörməti,
Ayaqlama, ay Qara qız.

Anama de, ağlamasın,
Bacıma de qarğamasın.
Əsmər yandı Mustafasız,
Sən də dön get, ay Qara qız.

İki sevgili əl-ələ verib bağdan çıxıb getməkdə olsun sizə kimdən xəbər verim Namaz adlı bir çovandan, bu çovan Babakər dağlarından başqa heç yeri görməmişdi. Yaşı 30-31 olardı, evlənmək yadına düşmürdü. Anası Qızxanım arvad adda bir aparıb paltarını dəyişdikcə hey deyərdi ki, ay bala, qocal-

mışam daa, gələ bilmirəm, nə vaxtacan subay qalacaqsan, evlən, sənə də baxsın mənə də.

Günorta vaxtı idi çovan sürünü gətirib yatağa salıb, oturub fikirləşirdi ,bir də gördü dağın ətəyi ilə bir oğlan yanında da bir qız gedir. Öz-özünə dedi şükür sənə allahım, bu neçə vaxtda evlənmək yada düşmürdü, bu gün Allah qismətimi göndərib. Tez ayağa durub yapıncısını çiyninə saldı, çomağını əlinə alıb, gəlib kəsdi qabaqlarını salamsız-kəlamsız görək çovan nə dedi, Mustafa ona nə cavab verdi.

**Çovan:**

Kef -damaxla gələn oğlan,
Söylə haradan gəlirsən?
Dağlar mənim məskənimdir,
Niyə buradan gəlirsən?

**Mustafa:**

Qərib ellərdən gəlmişəm
İncitmə məni, mən gedim.
Nişannılı qız almışam,
İncitmə məni, mən gedim.

**Çovan:**

Cavansan hoya yetginən,
Çovana hörmət etginən.
Qızı qoy, özün getginən
Sonra gəlib aparарsan.

**Mustafa:**

Mustafayam nərəm burda,
Əmliyi verməरəm qurda.
Atam, anam gözü yolda,
İncitmə məni, mən gedim.

Söz tamama yetişir Mustafa ilə çovan dostlaşır, görüşüb ayrılırlar. Sizə kimdən xəbər verim Əsmər xanımın əmisi oğlu İmrandan. O, xəbəri eşidən kimi özünü əmisi Paşanın yanına yetirir ki, Əmi, Əsməri qaçırdılar. Bunu eşidən ata tez qoşunun başçısı Şükür Qulu oğlunu hüzuruna çağırıb tez onları tutub gətirməyi əmr etdi. Bunu görən İmran dedi, əmi, bu mənim işimdi. Afərin, oğul, onda qoy bir neçə atlı sənlə getsin.

Əsmər xanımla Mustafa Qırmızı körpüyə yaxınlaşırdı, bir də dönüb arxaya baxdılar, bir neçə atlının onlara yaxınlaşdığını gördülər. Əsmər xanım əmisi oğlu İmranı Mustafaya nişan verib ondan ehtiyatlı olmasını bildirdi. Dəstə yaxınlaşan kimi İmran əl qaldırıb onu saxladı.Mustafa ilə təkbətək dalaşmaq təklif etdi və dedi ki, kim qalib gəlsə qız da onundur. Oydu ku Mustafa bir dəli nərə çəkib İmranın arxasını yerə vurub əl-qolunu bağlayır. Bunu görən dəstə kor-peşiman geri dönür.

Mustafa Əsmər xanımı götürüb el-obasına gedir, elin adəti ilə 40 gün, 40 gecə toy edib xoşbəxt yaşayırlar.

Mustafadan xəbər alırlar ki, necə getdin-gəldin, onda deyir izin veri sazla deyim:

**Müxəmməs**

Babakərdən gələn zaman,
Yanımda bir canan mənim,
Gəlibən kəsdi yolumu,
Namaz adlı çovan mənim.

Çox söylədim o,qanmadı
Düşdü möhkəm davam mənim,
Yaman yerdə yada düşdü
Yerim, yurdum ,obam mənim

Mustafa çovana deyir:
Qazaxda anadan olub,
Borçalıda ucalmışam.
Təbli bir qazaxlı kimi
Şeyrə həvəskar olmuşam.
Uşaqlıqdan saz götürüb
Elin toyunu çalmışam
Ən çox məni istəyirmiş
Şixlinski babam mənim.

Eşitmişdim görməmişdim
Düzü doğrusu çovanı,
Hər şeyin qanmazı olur,
Çovanın da var qananı,
Çovan sazı görən kimi,
Qucaqladı Mustafanı.
O gündən bu günə kimi,
Sirdaşımdır çovan mənim.

## AŞIQ MUSTAFAYA HƏSR EDİLMİŞ "SARITEL" VERİLİŞİ

Əziz dinləyicilər, "Sarıtel"in səyyar səfəri qocaman Borçalının Təkəli elindədi. Təkəli elində kimin evində, kimin ocağında? Təkəli Mustafa deyilən aşığımızın, ozanımızın ocağındayıq. Oturmuşuq onun həyətində. Biz gəlmişik Bakıdan bura ki, Aşıq Mustafanın səsini, sözünü, üşəncini qurdalıyaq görək bizim dinləyicilərimizə nə deyir. Ürəyindən nə keçir? Dərdi, qəmi, sevinci, kədəri, arzuları nədi? Ona görə bu gün ona zəhmət verəsi olacağıq. İndi ustad Mustafa kişinin, Aşıq Mustafanın ürəyindən nə keçsə bizim "Sarıtel" verilişinə, digər verilişlərimizə, bizim Azərbaycan dinləyicilərinə, Azərbaycan radiosunun həvəskarlarına, daimi dinləyicilərə ürək sözünü deyə bilər. Ona görə ki, səs qalarğıdı və bizim dinləyicilərimiz də bilməlidilər ki, hansı mahalda, hansı obada bizim ağsaqqallarımız var, aşıqlarımız var, ozanlarımız var, sənətkarlarımız var, bundan hamının məlumatı olmalıdır. Beləcə, sözü verirəm ustad sənətkarımıza:

**"Dubeyt" havası üstə**

Atalardan bir misaldı,
Xəcalətlik tər gətirər.
Arvad evdə xəzinədar,
Qazancını ər gətirər.

Oğul eşidər atanı,
Elə oğul varmı, hanı?
Çox zaman da bəd xətanı,
Acı dil, boş sər gətirər.

Mustafa, kim qədir bilsə,
Yanana ver canı gəlsə.
Aparanlar gətiribsə,
Əsirgəmə, ver-gətirər.

**Elxan Məmmədli:** Aşıq Mustafa, mən istəyirəm dinləyicilərə sizin haqqınızda məlumat verim. Bayaq qeyd elədim ki, Borçalıda bu son qırx ildə yetişən sənətkarların sırasında biri də sizsiniz. Son dövrlərdə eşitdiyimə görə o qədər də məclislərə çıxmırsınız. Amma bu sənət sizinlədi, beyninizdədi, saz sinənizdədi. Dövr elə gətirib ki, onun da obyektiv səbəbləri var. Ailə qayğılarıdı, dolanmaqdı, bunlar hamısı sənətə təsir edir. Sənətkara elə bir şərait yoxdu ki, sənətkar ancaq sənətlə məşğul olsun. O, sizdən asılı deyil. Mən istəyirəm Siz dinləyicilərə bir az danışasınız. Sizin ustadınız kim idi? Kimlərlə oturub-durursunuz sənət dünyasında? Özlüyümdə mən bilirəm, amma istərdim ki, dinləyicilərimiz də bilsin. Həm də eşitmşəm ki, siz məclislərdə şirin söhbətlərin şakərisiniz. Sözü məqamında işlədən adamsınız. Məclisin özündə ağır, çıxılmaz vəziyyət yarananda vəziyyətdən çıxış yolunu tapırsınız. Bir sözlə, rəvayətlə, hekayətlə məclis üzvlərinə çatdırmağı bacaran adamsınız, sənətkarsınız. Qısaca tərcümeyi-haldan sonra dinləyicilərimizlə söhbət edə-edə təmasda olasınız. Burda onu da qeyd edim ki, Aşıq Mustafanın həyətində oturmuşuq biz. Bayırdan da ola bilsin başqa səslər gəlsin, qonşunun həyətindən bir səs gəlsin, bir toyuğun, bir quşun cikkiltisi gəlsin. Yəni biz açıq təbiətin qucağındayıq. Ona görə də dinləyicilər birdən təəccüb eliyər ki, burdan bir quş səsi gəldi. O da təbiətin səsidi. Aşıq özü də təbiətin səsini saza gətirir, öz səsilə verir. Musiqinin özü də təbiətdi. Bu mənada dinləyicilərə ona görə məlumat verdim ki, yəni qıraq məhəllələrin də səsi verilişdə eşidilə bilər. İndi istəyirəm sözü sizə verim, dediyim o məqamla, ovqatla dinləyicilərlə danışın, söhbət edin. Buyurun.

**Aşıq Mustafa:** A qardaşım, təsadüfi qonağıq da bu düzün ortasında, yaşerıx. Bunun da bir səfası var, bunun da bir yaraşığı var, bunun da bir gözəlliyi var. Düzü, mən usta yanında olmamışam, amma Allah rəhmət eləsin, yoldaşlığım Sadıq Sultanovdan başdıyır. Əmrah kişiynən, Nurəddin kişiynən mənim yoldaşlığım olub. Bir günnəri Kosalı kəndində toydayam, əmə getmək istəmerəm toya. Çünki deyirlər orda bir Aşıq Alxan var, gələn aşığın hamısını pisikdirir. Mənim də cavan vaxtımdı, bərkə-boşa düşməmişəm. Sadıxlıda toydayam, burda gejə odun almağa gələnnər, yəni səhəri toyları var, gəlib odun aparıllar hazırrıx üçün. Məclisdə elə məni görörlər, deyirlər bizim aşığımız budu ki, bunu aparajıyıx. Gejə mən bulara söz verirəm, sabah sizin aşığınız olacam. Bundan sonra Kosa Yusufdan xəbər aldım, ay Yusuf əmi, mən Nazarrıda, Kosalıda toyda olmamışam. Bə məni oruya dəvət eliyiblər, gedə bilərəmmi? Dedi, oğul, gedərsən, əmə orda Aşıx Alxan var, deyillər, gəlif-gedənin hamısını pisikdirir. Dedim onda mən o məclisə getmijəm. Söz vermişəm, mənim halım yoxdu. Dünənki uşax, mən gedim bir kal aşığın məclisində gedim özümü pisikdirim. Yox, onda mən öyümüzə getdim. Gələn kimi diyərsən ki, vallah, gejə yaman ağrıdı, çıxdı getdi.

Mən gəldim Rustaviyə, getmədim toya. Bular gedellər mənim arxamca, dedilər axşamnan nasazdadı, vardı çıxdı getdi. Cavan vaxtımdı da. Öz mamam evində dincəlerdim, onda gördüm üstümü kəsdilər, öyrəniblər hardayam. Nəqqədər boğazımı-başımı sarıdım, day deyəmmirəm ki, Aşıx Alxana görə getmerəm. Dedim vallah səsim batıf, gedəmmerəm. Dedilər eləjə saz çalmağın da bizə bəsdi, söhbətin də bizə bəsdi. Əmə sən olajan bizim aşığımız. Oydu ki, məni apardılar. Bulara da bu sirri açmadım. Qara Nəsif deyillər Kosalıda. Buların üst otağında qocalar yığılıf başıma, mən isə söhbət elerəm. Bir az da çaldım, oxudum, söhbətdən sonra sazı qoydum akuşkanın qabağına, yenijə bir stəkan çay işmək istiyirdim, bir də gördüm

eşikdən bir uzun aşıx girdi. Əynində də bir sarı şinel, hündür adamdı. Tez böyrümdəkindən xəbər aldım, ayə, bu kimdi? Dedi bu Aşıx Alxan. Mənim qarannığıma qan damdı. Axı mən öy yiyəsinə diyəmmerəm, mən buna görə gəlmirdim. İndi bular ayaxlarını dirədilər ki, Alxannan məni barabar oxutsunnar. Alxan kişi gətdi sazını qoydu sazımın yanına. Otdu bir istəkan çay içənnən sora dedi, aşıx qardaş, olarmı bir çıxax bağda-baxçada gəzək? Dedim baş üstə. Çıxdıq bir az bağda gəzməyə. Sən mana sual verən kimi dərhal bir sual verdi ki, aşıx, ustanız kim oluf? Mən isə dedim heş kəs. Mənim ustam olmof. Bə niyə? Ustasız da aşıx olarmı? Dedim haqq aşığı olduğumuza görə ustuya ehtiyacımız olmadı. "Haqq aşığı olduğumuza görə ustuya ehtiyacımız olmadı" sözü bunu yaman tutdu. A bala, haralısan? Dedim vallah biləmməzsiniz. Yerriyim Qazaxdandı, Borçalıda yaşıyıram. Qazaxdan kimlərdənsiniz? Dedim bəlkə tanıyammadın? Əşşi, mən tanıyaram, aşıx adamam, niyə tanımeram? "Mən Qarnet ağanın oğluyam" - deyəndə bu məni elə qucaxlıyar, elə qucaxlıyar, ayə, sən mənim qardaşım oğlusan. Sənə də qurvan olum, atana da qurvan olum, sən düz deyirsən ki, mən haqq aşığıyam da. Bəyaxları Alxanın qorxusunnan ürəyi əsən aşıx, indi vallah qırqovul beçəsi kimi fır-fır fırraneram. Alxan əmi deyif ürəyim düşər yerinə. Alxan əmi, bə buranın məclisində mən olmamışam. Dedi oğul, indi baravar oxuyajiyıx. Məxləsi, ürəyim düzələr, girərik içəri, camaat gələr dolar. El-oba, tanış. Məni orda kimdi tanıyan? Hamısı Alxanı tanıyıllar. Qərib sevən bir el, toysun (yəni cürətli və enerjili vaxtımdı – E.H.) vaxtımdı. Əyağımı yerə döyüf oxuyuram. Qısqancım Alxan əmidən idi, Alxan da ki əmim oldu, kimnən qısqanajam. Qəşəng oxuyaram. Dəli, dolu, istiyən, hamısı dolar içəri. İçəridə yer yoxdu. Axırda eşikdən toy babası gələr ki, indi aşıxların biri o otağa keçsin. Dedim, Alxan əmi, bura istiləşifdi, burda sən oxu, mən o biri otaxda oxuyum. Mən keçərəm o biri otağa, bəyax dedim, dəli-dolu,

qanan, qanmaz, yekə, iri, hamı mənim arxamca gələr mənim otağıma. Qojalar qalar Alxanın yanında. İndi hərrənməyimə yer yoxdu. Elə vaxtımdı ki. O zaman da paprus kimi şeylər mənim sinəmə, səsimə ziyan eləmerdi. Bircə xayiş elədim, Nəsif var idi, dəllək Nəsif, o da ağa oğluydu. Bircə onnan xayiş elədim ki, imkan yarat, bir balaja, genlik olsun, mənim meydanım gen olsun, paprus çəkən çəksin, amma səs-səmir olmasın. Qəşəng oxuyaram, məclisə xoş gəler. Oydu ki, dövran vaxtı mənim dövranımı ayrı yığmaq istədilər. Dedim yox, o dövranı yığdırıf Aşıq Alxana göndərdim ki, qoy pul onda olsun. Mən eşqinən, həvəsimə görə oxuyuram. Yeni atılan vaxtımdı. Oydu ki, ona da ağsaqqalar çox razılıx söylüyəllər. Gejə Alxangildə qalaram. Savax həmin puldan bir az artıx Aşıx Alxan qırmızı kəlağeyin arasına bağlıyar, köhnə "Moskviç"i var idi. Onun da yaxşı vaxtı idi, cavan idi. Gətirər məni Rustavidən özü yola salar, ağrın alem. Bax mən haqq aşığı olmuşam, mən usta yanında olmamışam, əmə ustalarnan oxumuşam.

**Elxan Məmmədli:** Allah sizə də uzun ömür versin, Aşıq Alxana da. Bu yaxınlarda, yəqin ki, siz radiodan da eşitdiniz, buralarda elə bütün Borçalı bilir, 90 yaşı keçdi. Mən də orda idim. Yaxşı verilişlər də verdik. O vaxtı döş-döşə oxuyurdunuz. İndi sənəti atmısınız deyə oxumaq bir az sizə çətin gəlir. Amma çətin də olsa elə bilirəm ki, şövqlə o günləri yada salıb dinləyicilərimiz üçün nəsə oxuya bilərsiniz.

**Aşıq Mustafa:** Mən sənəti tullameyjeydim. Gənə tullamamışam, intəhası, başıma qəzalar gəldi. Sora mənim uşaxlarım tələf oldular. Ara vermədilər. 5 il bir buraxdım sənəti. 7 il bir. Aşıxların hamısı mənnən dərdə, qəmə şərik oldular. Məni dəfələrnən Bakıya aparmaq istədilər. Gedəmmədim. Çünki aşıx elədi ki, həvəsnən, ürəknən oxuyur, əyağını yerə döyüf oxumuyannan sora aşıxda o qədər gözəllik olmur. İndi nə oxuyum, bir şey oxuyum da. Bacararam elə bilirəm ki.

**Elxan Məmmədli:** Aşıq Mustafa, siz sazı kökləyənə qədər mən dinləyicilərə onu da çatdırım ki, bu gün sizin ocağa, daha doğrusu, verilişə mənimlə bələdçi olan Borçalının tanınmış aşıqları gəlib. Məni sizin ocağa gətirən onlardı. Aşıq Cəmil Borçalıdı, Nurəddin Qasımlıdı, onun oğlu Həvəskar Qasımlıdı, onlar da burdadı. Bir məclisdə olan adamlardı və sizi çox gözəl tanıyırlar. Mən istəyirəm siz sazı kökləyənə qədər ilk öncə yaxın qonşunuz Cəmil kişi (o Qaçağanda, siz Təkəlidə) sizin haqqınızda bir-iki kəlmə desin və onun arxasınca bir hava bizim dinləyicilərimizə çatdırın.

**Aşıq Cəmil:** Aşıq Mustafaynan lap cavannığınnan yoldaş olmuşux. Mustafanın indi oxumağı yaşnan əlaqədardır. Bir balaca qəza-qədər, qəmli həyatı oldu. Mustafanın onda oxumağı ayrıydı. Mustafaynan biz toyda oxuyanda mən deyirdim nola Mustafa aşağı pərdəyə enmiyə. O beçə pərdədə oxuyanda mən ona çata bilmirdim.

Günnərin bir günü, ömür uzundu, mən uzax düşdüm, qürbət ellərdə oldum. Mustafa burda oldu, başına hadisələr gəldi. Görüşdük. Günnərin bir günü bizim qonşuda bir balaca məclis vardı. Oruya gəlmişdi. Oğlu Maarif də yaxşı oxuyandı. Çox qəşəng çalıb oxuyandı, sazda, qarmonda. Mustafanın uşaxlarının hamısı oxuyandı. Nurəddinin uşaxları kimi. Nəsə bizə döndülər, qardaşımı görmək istədi. Otdux qapıda söhbət elədik. Mən Mustafanın o illərdən oxuduğunu eşitməmişdim. Elə bilirdim həmən Mustafadı. Mən balaca saz çaleram öydə, gətirdim, Maarif bir az çaldı-oxudu. Mən bir az qımıldadım. Mustafa oxuyanda gördüm o Mustafa döy. Mən elə oldum ki, orda demək mən indi oturub həmən o cahallıx vaxtı toylarda, dağda Mustafanın dabanını qaldıranda tozunnan batmax olurdu. Burda ona balaca şeir dedim. Aradan bir az keçir. Maarif dedi ki, ay Cəmil əmi, o ki mənim atamnan belə indiyətən dosduğunuz oluf, hələ aranız dəymiyif, sizin münasibətə mən heyranam. Sən Allah, Bakıya gəl babamnan barabar mana bir

qonağ olun. Dedim bala, biz qocalmışıx, ağrıyırıx, nağarajıyıx orda? Dedi vallah, gəlin oruya, sizin dərdinizə dərman məndə.

Cavannıx yoldaşım Aşıx Mustafa,
Kaş ki görmiyəydim səni mən belə.
Harda qaldı o səs, nejoldu nəfəs,
Şikəstə deyəndə yatardın telə.

Doğrudan, şikəstə oxuyurdu, "Qarabağ şikəstəsi", bunun dalına çatmax hər məni kimi oğuluun ağzı döyüldü. Onnan sora deyir ki:

Yadındamı toy eylədik Çataxda,
Axşam çağı aran köçü yaylaxda.
Bir xanım oynuyur o biri otaxda,
O başda qallannar demirəm hələ.

Cəmiləm, çox gördüm alim, arifi,
Dəymiyənə diyəmmirəm tərifi.
Gəl gedək Bakıya, tapax Maarifi,
Bəlkə dərdimizə bir çarə bilə.

Hələ getməmişik, gedəjiyik. Amma bizim dərdimizə Maarif çarə eləməlidi. İndi bilmirəm kurorta aparajax, onun öz işidi. Allah onun da canını sağ eləsin, Mustafıya da Allah-tala bunnan sora yaxşı eşq versin.

**Elxan Məmmədli:** Aşıq Mustafa, buyur.

**Aşıq Mustafa:** Məndə günah döyül, a Cəmil. O şeirin birində yazmışam ki:

Bu gün sənin toy günündü,
Çox mübarək, Ayna xanım.
Bəy oynasa bolluq olar,
Dur qalx özün oyna, xanım.

Marağın var sözə, saza,
Oxşarın var quba qaza.
Yazı yazan düzgün yaza,
Hər kəsdəni tayna, xanım.

Mustafayam, ağa, bəyəm,
İstəmərəm qəlbə dəyəm.
Yetmiş yaşın içindəyəm,
Ayna xanım, Ayna xanım.

İndi Cəmil, mənim yetmiş yaşım var, innən sora mən nə oxuyasıyam?

**Aşıq Cəmil:** Məzəli yeri buradı, deyirdin ki, əgər aşığın çay-çörəyin vaxtında verməsən oturarsan vayına, xanım.

**Aşıq Mustafa:** Gördüm yox, Ayna bunnan düzəlmer, götürdüm son bəndi belə tamamladım:

Gözündəsən bəyin, xanın,
Dilindəsən el-obanın.
Bügün-savah Mustafanın,
Oturarsan vayna, xanım.

**Bir dənə "Ruhani" oxuyum.**

Bilmirəm bəz adam niyə az qaner,
Hərənin öz dostu, tayı var, bala.
Allahın verdiyinə naşükür olma,
Hər kəsin qisməti, payı var, bala.

Qanannan qanmazı baravar tutma,
Sağalan yaramı vurub qanatma.
Xətiri, hörməti gəl sən unutma,
Surfanın çörəyi, çayı var, bala.

Adam zəhər qatmaz yağlı aşına,
Qatannarın çox iş gəldi başına.
İçifsən zəhəri, vurma başına,
Yollarda milis var, QAİ var, bala.

Sənətkar ol, hörmət bəslə peşiyə,
Lazım olar, yığşır tulla yeşiyə.
Daldalanma çox qarannıx meşiyə,
Meşədə canavar, ayı var, bala.

Eşidin sözünü ata-babanın,
Xeyri yoxdu qalmaqalın, davanın.
Aşıx Mustafeynan elin, obanın,
Arasında haqqı-sayı var, bala.

**Elxan Məmmədli:** Aşıq Mustafa, çox sağ olun. Mən düzü, istəməzdim sizi əziyyətə salım. Özünüz də dediniz, Aşıq Cəmil də dedi ki, çoxdandı sazla məclis keçirmirsiniz. Çətindi də, aralanandan sonra hamı bilir bunu. Xüsusilə, bizim dinləyicilər də yaxşı bilir ki, dəmir dəmirdi, adi dəmir, işlənməyəndə pas atır. Allaha çox şükür ki, siz özünüz də Aşıq Cəmil kimi sazı atsanız da, məclisə getməsəniz də şeirlə oturub-durursunuz, şeir yazırsınız. Bizim aşıq poeziyasını zənginləşdirirsiniz. Bayaqdan oxuduğunuz o bir neçə şeir də sübut eliyir ki, sənətin bir qolu dayanıbsa da, o biri qolu öz işindədi. Sözlə saz əkiz doğulub. Necə Koroğlunun qılıncı, atı, sazı, yaradıcı aşığın da sazı dayananda sözü dayanmır. Ömrünün axırına qədər, son ana qədər. İndi təəssüflənməyə dəyməz. O məclislər yola gedib artıq. O toylar olub. İndi o toyların nəvələri var, nəticələri var. Siz toyunu elədiyiniz gəlinlərin indi nəvələrinin toyudu. Siz fəxr eliyə bilərsiniz ki, filan gəlinin toyunu mən eləmişəm, filan igid kişinin toyunu mən eləmişəm. Onlar indi babadı. Bu, sizin keçdiyiniz şərəfli bir yoldu. Mən indi is-

təməzdim siz təzədən əziyyətə düşəsiniz, yenə oxuyasınız. Amma arzulayardım ki, dinləyicilərimiz üçün də bu xoş olardı ki, şeirlərinizdən bir neçəsini dilcavabı oxuyasınız, yavaşca-yavaşca deyəsiniz, dinləyicilərimiz də eşitsin. Aşıq Nurəddinlə aranızda on yaş fərq olsa da, onun da sizin sənət haqqında, sizin haqqınızda ürək sözü var. Bir neçə şeir siz deyəndən sonra madam ki, bir yerdəyik, bir yerdə sizə baş çəkməyə gəlmişik sizin ocağa, bu məqamda mən istərdim ki, Aşıq Nurəddin də bir-iki kəlmə danışsın. Əgər Həvəskar balanın da, onun oğlu ürəyi qızışsa Mustafa babasının bu verilişində gözəl bir hava oxuyar bizim dinləyicilərimiz üçün. Mənə belə gəlir lap gözəl olar. İndi söz sizindi. Ürəyinizdən keçən şeirinizi deyin, sonra sözü verəcəm Aşıq Nurəddinə. Buyurun.

**Aşıq Mustafa:** Əziz qardaşdarım, mən bəyax dedim, qoja da olsam, o qədər qoja deyiləm. Bunu hər yerdə demək olmaz qoca söhbətini, indi sizin yanınızda deyirəm bu söhbəti. Ayrı yerdə demərəm.

Bolnis zonasında toydayam. Yəni Qoçulu kəndində, İmirahsan kəndində işdiyən vaxdarımdı. Məclisdə mənim üstümü kəsdilər ki, a Aşıq Mustafa, ayın birində bizdə toydasan. "Ayın birində bizdə toydasan" deyəndə buna baş üstə deyib cavab verdim. Aradan bir az keçmədi gənə üstümü kəsdi ki, a Aşıq Mustafa, ayın birində bizdə toydasan. Nəqqədər buna hə dedim, əl çəkmədi. Tamada dedi ki, Qoçulu Cahangirin oğlu Dilqəm dedi ki, bu da mamaoğludu, Aşıq Mustafa, bu sənnən niyə əl çəkmer? Dedim vallah, deyir ayın birində bizdə toydasan, mən hə demişəm, gənə əl çəkmer. Bu gün ayın biridi, bir ay var, bir aya məni zakaza tutur. Dedi Aşıq Mustafaeyi narahat eləmə, gəlməsə, mən özüm gətirəjəm. Ayın iyirmi beşində Rustavinin Təzə kəndindən aşığın arxasınca gəldilər ki, ayın birində toya gedəjiyik. Götürdüm kitabçama baxdım gördüm ki, mən ayın birinə zənitəm. Bunlar da məni birinə çağırıflar. Rustavidən gələnnər də birinə çağırellar. Gördüm zənitəm,

dedim vallah, məni bağışdıyın, mən zənitəm ayın birinə. Bolnis zonasında toyda olajam. Əmə o adam içkiliydi, ola bilər ki, içki zoruna demiş olar. Biz bu işi yoxlamalıyıx. O vaxt da maşının da ucuz vaxtıydı, benzinin də ucuz vaxtıydı, beş-altı cavan oğlannar idik, gedək. Doldux getdik, həm sərin sudan içdik, həm də toy öyünün qapısına çatanda bunun heç bir hazırrığı yoxdu. Dedim ə, dostum, toy eliyirdin, bə hanı sənin hazırrığın? Bu mana nə desə yaxşıdı? Dedi Aşıx Mustafa, mənim toyum fışqırıxnan gedəjək. Mən öz-özümə yozdum ki, bunun dostu-tanışı çoxdu, knopkoyu basajax, telefonnan zəng eliyəjək hamısına ki, sən əti gətir, sən çaxırı gətir, sən odunu gətir. Bir gündə əmələ gələn işdi. Dedim olarmı mənim də məclisim fışqırıxnan keçə? Dedi nağarmax istiyirsən? Dedim sən məni buruya tək çağırıfsan. Olarmı bir aşıx da mən gətirəm, xoruz beçə kimi qabax-qabağa döşüyək? Dedi məclis sənindi, toy sənindi, istiyirsən beşini gət.

Oydu ki, bir aşıx da götürüf, Aşıx Cəmili də götürüf getdik məclisə. Baxdım məclis xoşuma gələn məclis döy. Mana yaman dəydi. Dəyməkdən savayı xəbər aldım, ə, dostum, bə deyirdin toyum fışqırıxnan keçəjək. Bə hanı? Bu mana gülə-gülə, ə, sən anrı oxu dedi. "Ə" sözü də ağır sözdü. Orda yazdığım şeirdi:

Fışqırıxnan toy eyləmək olarmı?
Toyun tədarükü qavaxdan gərək.
Toya doy deyiblər ata-babalar,
Yemək qurtarmasın qavaxdan gərək.

Göy də yox camaat yeyə. Eşikdən kabab gəler. Hisə, pasa bələnmiş kabab, arıq ətdən, suyu dama-dama. Orda yazeram ki:

Var hansı kişinin çuğun qamçısı,
Olmaz ailəsinin boş pıçıltısı.

Keçirər ocağı suyu, damcısı,
Kabab çəkilməsin pazaxdan gərək.

Yağlı ətdən yağ damar, ojax yanar. Arıq ətdən su damar, ojax keçər. Nə qədər gözdədim gördüm ki, vallah, çadırın qavağında arvadnan əl yaxıya çıxıf. Arvada tərbiyə verer. Əşi, qırx ildi arvad alıbsan, otuz ildi arvad alıbsan. Burda bir atalar sözü götürürəm.

Pişiyin fikri olsa mərəkdə,
Taxsırı görəllər yazıx köpəkdə.
Küçük samannıxda, gəlin gərdəkdə,
Təlim-tərbiyəsi o vaxtdan gərək.

Arvadı o vaxtı nə örgədifsən odu. Nolajaxdı. İş gəldi elə oldu ku, uzaxdan gələn qonaxlar qaldılar, yaxınnan gələnnər getdilər. Üzr istiyirəm, söhbət bu yerdə qaldı, burasın demək istəmerəm. Amma diyəjəm nə oluf, gizdiyəmmiyəjəm. Yaxınnan gələnnər getdilər, uzaxdan gələnnərin yerin saldılar padvaldan. Kimin gözünə şirin yuxu geder, siçoul döşünə çıxan kimi gözün açer. Bir söz, siçoulluxdu. Orda yazeram:

Qurtardı canını ertədən qaçan,
Yedi qulağımızı siçoul, siçan.
Öyü yıxılmışı başına uçan
Qonax çağırmasın uzaxdan gərək.

Sənin dağılmışın yoxdu yatmağa, biz yazığı padvala nəyə doldurufsan? Savaxa yaxındı, gördüm yorğan qımıllaşer, ordan-burdan hənirti gəler. Axşamnan da bir şey yeməmişih. Durun görək xaşdan-zaddan varmı? Bir az ağılanax, geniyək. Savax qalxdıx, yüyündüh, çırpındıx, yaxşı vaxtımdı. Çırpındıx, öy yi-

yəsini gəzerik, öy yiyəsi yoxdu. Axırı tapdıx, xaş da hazır döy. Burda yazeram ki:

Nəyə dayanıfsan, üzümə bir bax,
Xaşa umuddudu əylənən qonax.
Kimiyə qarın-baş, kimiyə dırnax,
Yüz-yüz də verəsən savaxdan gərək.

Mustafa yazdığın mindirər mətə,
Kimdi ki, tamarzı şorbuya, ətə.
Qoymaram zəhmətin arada itə,
Gedib çapa verəm Qazaxdan gərək.

O vaxtı çapı Qazaxdan götürürdülər, Borçalıdan götürmördülər. Adın da yazmışdım buruya. Oydu ki, söz verdi qırx adamlıx Bolnisin turş bulağının üstündə qonaxlıx verdi. And işdim orda ki, day adını demiyəjəm. Dedi adımı desən el içində tuncur olajam. Ona görə şeirdə onun adını demerəm. Sağ olun, ağrınızı alem.

**Elxan Məmmədli:** Deyəsən sözümüzə əməl eliyəcəyik. Aşıq Nurəddin bizim ağsaqqal haqqında, hər halda az olmayıbsan bizim məclislərdə, dadını-duzunu görüfsən, bir neçə kəlmə də sən bizim dinləyicilərimizə danışasan. Buyurun.

**Aşıq Nurəddin:** Elxan müəllim, çox sağ olun. Sizin gəlişiniz bizi sevindirir. Borçalıyı sevindirir, Borçalıyı yada saler. Borçalının dünyadan gedən sənətkarlarını, hal-hazırda yaşayan sənətkarlarını yad eliyirsiniz. Allah sizə can sağlığı versin. Bunnan bahəm bu gün biz Aşıq Mustafanın evində oturanrux. Allah onun evini şen eləsin, hamılıxnan barabar. Mustafa gözəl sənətkardı, çox yüklü sənətkardı. Xeyli vaxtdır mən Mustafiyi tanıyıram. Gözəl ailə başçısıdır, gözəl uşaxları var. Uşaxların hamısı atalarının sənətini götürüblər. İşdədirlər. Elimizin toyunda, şənliyində, yaxşı günlərində iştirak eliyillər.

Bunnan baravar mənim uşaxlıx vaxtım idi. Hələ mən öz-özümə elə-belə çalıb-oxuyurdum sazı. Çox marağım varıydı, Aşıx Mustafa Aşıx Alyar rəhmətdihnən bizim kəndə toy məclisinə gəldilər. Onda mən də cavan idim, Aşıx Mustafanın da cavan vaxtı idi. Aşıxlıx simasında, aşıx formasında gəlif hər ikisi məclisdə oxuyurdular. O vaxtı cavannarı məclisə buraxmırdılar. Ağsaqqallar oturan yerdə uşaxları, cavannarı qoymurdular. Mən nəsə bu sənətə həm vurğun idim, həm marağım var idi. Həm də az-maz oxuyurdum. Mənə icazə verdilər mən keçdim Aşıx Mustafanın məclisinə. Gördüm qabax-qarışa Aşıx Alyarnan oxuyullar. Ama o yerdə mən gəlmişəm ki, "Cəlili" havasına köklüyüf oxuyajaxlar. Əmə mən bu havanın nə adını bilirəm, nə də eşitmişəm. Mustafa oxuyanda həmişə gülə-gülə oxuyardı. Təbəssümlü, onun elə təbəssümü daha xoş gəlerdi insana. Bunlar başdadılar "Cəlili" havasını oxumağa. Onda Mustafanın yenə cavan vaxtı idi. Bunun zəngulələri, gözəl yağlı səsi var idi. Bəyax da dediniz ki, bu, vəziyyətdən asılıdı. Özü də başına çox bəlalar gəldi, indi uzağ olsun. O vaxtı mən həmən havıyı fişqırıxda çala-çala saza salmışam ki, yadımdan çıxmasın. "Cəlili" havasını mən Aşıx Mustafadan götürmüşəm o vaxtı. Mən onları elə gördüm. O vaxtı, elə indi də sənətkara böyük hörmət var bizim Borçalıda. Mən Mustafıya uzun ömür, can sağlığı arzu eliyirəm siznən belə. Xeyli vaxtı sənəti işdədə bilmədi, əmə gözəl şeirrəri var Aşıx Cəmilnən barabar. Mən arzu eliyirəm ki, şeirlərinən sazı unutmasın. Saz bizim ana laylamızdı. Nəziləjək, üzülməyəjək bu sənət. Mən arzu eliyirəm bax beləcə ustad sənətkarlar bizdə çox olsun. Allah onlara uzun ömür, can sağlığı versin.

**Elxan Məmmədli:** Aşıx Nurəddin, çox sağ ol. Mən də sənin dediklərinə qoşuluram. Hamımız da qoşuluruq. Aşıq Mustafaya uzun ömür, can sağlığı arzulayırıq. Deməyinə baxmayın ki, qocaldım, yetmiş yaşım var. Aşıq Mustafanın bu görünüşdə heç altmış yaşı da yoxdu. Yəqin ki, məclislərə

təzədən çıxa bilər. yəni bu özünü kökləməkdən asılıdı. Əminəm ki, Azəraycan radiosundan özünü eşidəndən sonra Aşıq Cəmil də söz verdi ki, bu gündən sonra biz təzədən saza girişəcəyik. Sazla yaranan şeir, poeziya yenidən saz tələb edir. O qəlibləri doldurasan gərək. "Divani"ni divani qəlibilə çalıb oxuyasan, "Təcnis"i təcnislə yazasan. Beləcə yaranır bu poeziya. Biri var beynində zümzümə elıiyəsən, biri var sazı çalasan, içindən gələ. mən arzu eliyirəm ki, o saz əlinizdən düşməsin və o saz sinənizə oturanda o sizin sətirlər də bir-bir beyninizə otursun.

Bayaq dedim ki, Aşıq Nurəddinin oğlu Həvəskarın səsi-sorağı artıq bizim Gürcüstandan, Boraçlıdan, Azərbaycandan da kənarlara yayılıb. Çox istedadlı bir gəncdi. Mən şəxsən vurğunam onun sənətinə. İstərdim ki, Mustafa babasının gözəl bir şeirini dinləyicilərə təqdim eləsin. Buyur.

**Aşıq Mustafa:** İcazə verin qardaşoğlum oxumamışdan qabax bir söhbət eliyim, sözünü mən deyərəm, mahnısını o oxuyar.

Bəli, qəmli vaxtımdı. Saç-saqqal məni basıf. Uşax avariyaya düşmüşdü, onun bir-iki balası qalıb. Bekar vaxtımdı. Heç özümü bilmiyən vaxtımdı. Qaçağandan gəlirdim. Gəldim gördüm kəndin qulağında mənim bir əziz dostum kimnənsə yığılıf söhbət eliyillər. Yaxınlaşdım salam verdim. Salam verdim, bu məni tanımadı. Tanımıyanda yazdığım şeirdi:

Xeyir olsun, köhnə dostum,
Nə gəzirsən buralarda?
Xeyli vaxtı gedəmmerəm,
Nə var, nə yox oralarda?

Başkeçidin Hamamlı kəndindəndi, Mahmud adında. Əsli qazaxlıdı, əmə orda yaşıyır. Saçıma baxanda belə dönər, ayə, bu Aşıx Mustafadımı? Bu niyə bu günə düşüf? Orda yazıram:

Qurdalama oraları,
İtirmişəm bax buları.
Heç balanın balaları
Qalmasınnar aralarda.

Ayə, ölüf gedifsən ə, səndə hal qalmıyıf. Orda yazeram:

Mustafayam, yada yadam,
Yaxınlara çatdı sədam.
Dərdi, qəmi çəkən adam,
Sınıxar da, saralar da.

İndi həm qəmləndim, həm də qoy qardaşım oğlu oxusun.

Həvəskar Aşıq Mustafa söylədiyi gəraylını "İbrahimi" havası üstündə oxuyur.

**Elxan Məmmədli:** Həvəskar, çox sağ ol. Sən bizi də kövrəltdin. Bizim hamımız Aşıx Mustafaya səbir diləyirik. Yəni başı müsibətlər çəkib, gözü ilə odlar ayaqlayıb. Onun da təsəllisi sazdı, poeziyadı. Ona təsəlli verən onun dostlarıdı, sənət yoldaşlarıdı, eldi, obadı. Hamı bu eldə Aşıx Mustafanı sevir. Bu gün bir daha siz özünüz də burda iştirakınızla ona öz sevginizi, məhəbbətinizi bildirdiniz. Əminəm ki, bunun özü də Aşıq Mustafanın bundan sonrakı ömrünə bir işıqdı, bir nurdu. Mən onun bundan sonrakı ömrünə nur diləyirəm. Böyük sənət yolu diləyirəm, poeziya diləyirəm ki, bundan sonra onun qələmi dayanmasın. Onun sazı öz sözünü desin. Təbiət amansızdı, həyat amansızdı, amma sənət qalandı. Sənət bütün amansızlıqlara qalib gəlir. Sənətkar da öz dərdini poeziya ilə, sazla, sözlə, yaratdığı əsərlə ovundurur və bütün çətinliklərə qalib gəlir. Mən arzu eliyirəm ki, Aşıq Mustafanın həyatında heç bir çətinlik olmasın. Onun gözümüzün qabağındakı balaları da Mustafalı böyüsün.

Mən onu da xatırladıram ki, bizim dinləyicilərimizə, bizim söhbətimiz açıq təbiətdə idi. Yəni ətrafdan bura bizim danışığımz zamanı səslər gəldi. Təbii ki, bu texniki qüsura görə bizi bağışlayarlar bizim dinləyicilərimiz. Hər halda təbiəti, açıq havanı biz üstün bildik. Elə bilirəm ki, əlavə səslər bizim danışığımıza mane ola bilmədi. Bir daha istəkli dinləyicilər, sizin hamınızın adından Aşıq Mustafanı yetmiş yaşı münasibətilə təbrik edim. Ona can sağlığı arzulayım, uzun ömür arzulayım, sənət arzulayım, sənət uğurları arzulayım və bir də ailə səadəti. Onun ailəsinə, ocağına bir daha vaxtsız qəm, vaxtsız kədər üz verməsin. Eləcə də elində, obasında, eləcə də xalqın taleyində, həyatında. Ana sazımız qoy bizə layla çalsın. Bizim aşıqların, şairlərin şeirləri bizim könlümüzü oxşasın. Burda iştirak edən aşıqlarımıza da – Aşıq Cəmil Borçalıya da, Aşıq Nurəddin Qasımlıya da, onun oğlu Həvəskara da dərin minnətdarlığımı bildirirəm.

İstəkli dinləyicilər, bununla da bizim bugübkü söhbətimiz başa çatdı. “Sarıtel”imizin səyyar verilişi qocaman Borçalının qocaman eli olan Təkəli kəndindən Aşıq Mustafanın ocağından başa çatdı. Sağ olun, sağlıqla qalın.

Aşıq Mustafa, deyəsən ürək sözünüz var. Mən istərdim ki, ürək sözünüzü deyəsiniz.

**Aşıq Mustafa:** Mən elə bilirəm ki, bayaq o hazırrıxsız toy eliyən adamın adından demişdim, indi özümə söz verirəm ki, özümü ələ alajam. Bu yaxınnarda dinləyicilərin konlunu almaq üçün, buların elə sözü-söhbəti bu imiş deməsinlər. Söz verirəm, eşidilməmiş, xoruz səsi eşitməmiş bir yaxşı dəstan, genə Aşıx Mustafadan, sən əzizimə yazdırajam.

**Elxan Məmmədli:** Mən əminəm ki, Mustafanın sinəsi dəryadı. Biz də bədahətən, qəflətən sizin üstünüzü aldırdıq. Elə aşıqlar var ki, onları qorxutmur belə gəlişlər. Sizin özünüzü də qorxutmadı. Allaha çox şükür, söhbətiiz də yaxşı alındı. Mən əminəm ki, o dastan da olacaq. Sizə uzun ömür, can sağlığı

arzulayıram. Səfərlərimiz Borçalıya tez-tez olacaq. Qırımızı körpüdən sonra ikinci kənddi, üçüncü kənddi, sağa burulan kimi Aşıq Mustafanın evidi, ondan o yana Aşıq Cəmilin evidi, ondan o yana Qasımlıdan Nurəddinin evidi. Belə-belə aşıqlarımız hər kənddə var. Çox sevinirəm ki, hər bir kənddə bizim sənətkarlarımız var. Sağ olun.

***Borçalı mahalı, Təkəli kəndi***
***15 iyul 1997***

## AŞIQ MUSTAFA İLƏ ELXAN MƏMMƏDLİNİN SON GÖRÜŞÜ

Aşıq Mustafa ilə ilk görüşümüzdən bir il keçmişdi. Günlərin bir günü Maarif mənə zəng çalıb bildirdi ki, Aşıq Mustafa Bakıya gəlib və mənimlə görüşmək istəyir.

Vədələşdik. "Qara Qarayev" metrosunun həndəvərində xudmani bir çayçıda Aşıq Mustafa ilə uzun illərin həsrəti kimi mehribancasına bir-birimizi qucaqlayıb görüşdük. Oturub pürrəngi çay süfrəsi ətrafında şirin-şirin söhbət etdik. Bu məqamda Aşıq Mustafa qoltuq cibindən bir kağız çıxardıb mənə uzatdı. Dedi şeirdi, sənə yazmışam. Mənə həsr elədiyin verilişi dinləyəndən sonra sən məni dünyaya tanıtdın. Allah ömrünü uzun eləsin. Gücüm bu şeirə çatdı. Fikirləşdim ki, söz adamına sözdən yaxşı hədiyyə olmaz.

Şeiri götürüb oxudum, xoşuma gəldi. Uzun illərdən bəri arxivimdə saxladığım həmin şeiri bu məqamda oxuculara da təqdim etmək qərarına gəldim.

### Ay Elxan

El-el gəzib dolaşırsan vətəni,
Görməyəsən ağrı-acı, ay Elxan.
Harda aşıq görsən danışdırırsan,
Aşıxlar mülkünün tacı, ay Elxan.

Soruşdun, axtardın, tapdın sən məni,
Mən də çox sevindim görəndə səni.
Budur sözlərimin kökü, nədəni,
Arzumdu olasan hacı, ay Elxan.

Sən məni tanıtdın "Sarıtel"inən,
Adımı-sazımı yaydın elinən.
Aşıx Mustafayam, əmin bilinən,
Alaq düşmənnərdən öcü, ay Elxan.

Şeiri oxuyub qovluğuma qoydum. Sonra Maarif təklif etdi ki, durun gedək evimizə, evdə hazırlıq da görülüb. Bir az çörək yedikdən sonra çalaq-oxuyaq. Elə də etdik. Mustafa əmi bir az nasaz olsa da, xeyli söhbət etdik, çalıb-oxuduq. Bu mənim onunla son görüşüm oldu. Allah bir daha ona rəhmət eləsin.

### *AŞIQ QARACAN KƏRİMOV*

## KÖÇÜBDÜ

***Ustadım Aşıq Mustafanın vaxtsız vəfatına***

Ay hazarat, Borçalı mahalının
El aşığı Mustafası köçübdü.
Xanələr göynəyib, tellər ağlayıb,
Məclislərin zövq-səfası köçübdü.

Gümüş tellər bağlı qaldı pərdədə,
Neçə dastan sirli getdi sinədə.
Sənətkarın yaratdığı səhnədə
Sözü qaldı, ləl ifası köçübdü.

Sənətimi yolda qoydu yaradan,
Axıradək dərs almadım ustadan,
Qul Qaracan, Borçalının dünyadan
Kamil sənət bir ustası köçübdü.



*Aşıq Mustafa  ailə üzvləri ilə  birlikdə*



*Aşığın oğulları: soldan saga Maarif,Fikrət, Qarnet,Qasım, Arif*

# KİTABIN İÇİNDƏKİLƏR

Aşıq Mustafanı necə gördüm, necə tanıdım
(Elxan Məmmədli). ........................................................... 3
Unuda bilmədiyim ustad (Aşıq Qaracan Kərimov) ............ 8

## GƏRAYLILAR

Ceyranım ........................................................................ 12
Gətirər. .......................................................................... 13
Ay saz. .......................................................................... 14
Nahaqdı. ........................................................................ 15
Vaxtı. ............................................................................ 16
Etibarsız. ....................................................................... 17
Gəlmişəm ...................................................................... 18
Yazığam ......................................................................... 19
Dözəcəksən .................................................................... 20
Aldadacaq. ..................................................................... 21
Gətirər ........................................................................... 22
Xeyir olsun. ................................................................... 23
Məni .............................................................................. 24
Ayna xanım .................................................................... 25
Anam amanatı ............................................................... 26

## QOŞMALAR

Ay bala.. ........................................................................ 28
A qardaş ......................................................................... 29
Ay mamam qızı. ............................................................. 30
Sən Allah ........................................................................ 31
Utanmaya ....................................................................... 32
Bu üç ayı gələmmərəm, bağışla. ...................................... 33

Bilmədim ........................................................................ 34
Gəlmədi .......................................................................... 35
Hər ikisi .......................................................................... 36
Gələsən .......................................................................... 37
Yenə .............................................................................. 38
Çox da qoduxlanma ........................................................ 39
Olmalıdı ......................................................................... 40
Olmalıdı. ........................................................................ 41
Sonra. ............................................................................ 43
Kişi ................................................................................ 44
Haralıyam mən. .............................................................. 45
Zarafat. .......................................................................... 46
Bala. .............................................................................. 47
Ayıbdı. ........................................................................... 49
Ayağa. ........................................................................... 50
Yaralıyanda. ................................................................... 51
Satmadı. ......................................................................... 52
Saraldın. ........................................................................ 53
Zəhləm gedir. ................................................................. 54
Eloğlu. ........................................................................... 55
Yaxşıdı.. ........................................................................ 57
Xoşu gələndə.. ................................................................ 58
Gərək ............................................................................. 59
Gedir. ............................................................................ 60
Birinə ............................................................................. 61
A qardaş ......................................................................... 62
Olmur ............................................................................ 63
Gözləsin ......................................................................... 64
Öz adımı qoydum nəvəmə. ............................................. 65
Tapmışam. ..................................................................... 66
Tez barışasan .................................................................. 67
Məni .............................................................................. 68
Gedirəm. ........................................................................ 69

"Mustafa və Əsmər" dastanı. ............................................ 70
Aşıq Mustafaya həsr edilmiş "Sarıtel" verilişi..................... 79
Aşıq Mustafa ilə Elxan Məmmədlinin son görüşü............... 97
Aşıq Qaracan Kərimov (Köçübdü) ..................................... 99

**«Елм вя тящсил» няшриййатынын директору:**
**профессор Надир МЯММЯДЛИ**

**Компцтер дизайнери: Zahid Məmmədov**
**Техники редактор**: **Yadigar Bağırova**
**korrektoru: Vüsal Abiyev**

Йыьылмаьа верилмиш **26.01.2014.**
Чапа имзаланмыш **12.04.2014.**
Шярти чап вяряги **15.** Сифариш **№ 38.**
Каьыз форматы **60x84 1/16.** Тираж **300.**

Китаб **«Елм вя тящсил»** няшриййат-полиграфийа
мцяссисясиндя сящифяляниб чап олунмушдур.
**E-mail: nurlan1959@gmail.com**
Тел: 497-16-32 511-37-82; 050-311-41-89
Цнван: Бакы, Ичяришящяр, 3-ъц Магомайев дюнэяси 8/4.